# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 24 (3537) Cümə axşamı / 11-17 iyul 2024-cü il Qiyməti 40 qəpik


MÜSAHİB

## “O qatillə təkbətək söhbət etdim...”



**Mehman Mehmanov,**
DİN-in Şəxsi Heyətlə İş İdarəsinin sabiq rəisi, istefada olan polkovnik

***Daxili İşlər Nazirliyi Şəxsi Heyətlə İş İdarəsinin sabiq rəisi, istefada olan polkovnik Mehman Mehmanovla hafta.az üçün budəfəki söhbətimiz, əsasən, bu günlərdə Bakının müxtəlif məkanlarında keçirdikləri əməliyyatlar zamanı 4 polis əməkdaşının qətlə yetirilməsi ilə nəticələnmiş olaylarla bağlı oldu. Həmsöhbətimiz malik olduğu təcrübəyə əsaslanaraq cəmiyyətdə polis-vətəndaş münasibətlərini normallaşdırmağın yollarından da bəhs etdi...***

*Biz də bir cəmiyyət olaraq özümüz son olaylardan ciddi nəticə çıxarmalı və həm polisin vətəndaşa, həm də vətəndaşın polisə qarşı münasibətlərinin necə olması haqda düşünməliyik*

▸▸ Səh. 6

# Vaşinqtonda sülh danışıqları

***Uzun fasilədən sonra Azərbaycan və Ermənistan arasında sülh danışıqları ilə bağlı Vaşinqton yenidən dövrədədir. Belə ki, iyulun 10-da Vaşinqtonda NATO sammiti çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri - Ceyhun Bayramov və Ararat Mirzoyan arasında dövlət katibi Antoni Blinkenin iştirakı ilə görüş keçirilib. Bu barədə Azərbaycan XİN “X” sosial şəbəkə hesabında məlumat yayıb. Tərəflər Azərbaycan və Ermənistanın sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında tarixi sazişin yekunlaşdırılması istiqamətində əldə olunmuş irəliləyişi qeyd edib və bu istiqamətdə işi davam etdirməyə razılaşıblar.***



“NATO-nun Vaşinqtonda keçirilən sammiti çərçivəsində Azərbaycan və Ermənistan arasında sülh sazişi və iki ölkə arasında dövlətlərarası münasibətlərin qurulması ilə bağlı danışıqlara başlanılıb. Görüş Azərbaycan və Ermənistanın xarici işlər nazirləri - Ceyhun Bayramov və Ararat Mirzoyan arasında ABŞ dövlət katibi Antoni Blinkenin iştirakı ilə keçirilib”, - XİN-in məlumatında deyilir.

”Bu gün Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə bir yerdə olmaqdan çox məmnunam”. Bu sözləri ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə üçtərəfli görüşdə deyib. O bildirib ki, Azərbaycan və Ermənistan danışıqlar, o cümlədən dayanıqlı, layiqli və hər iki ölkə, region və ABŞ-la əlaqələr üçün böyük imkanlar yaradan sülh danışıqları istiqamətində vacib işlər görüblər.

“ABŞ Avropa İttifaqı və digər həmkarları ilə birlikdə bu prosesə dəstək verib. Bugünkü görüş əldə olunmuş irəliləyişləri nəzərdən keçirmək üçün bir fürsətdir. Bütün təmaslar, o cümlədən son həftələrdə aparılan müzakirələrə əsasən düşünürəm ki, tərəflər ABŞ-nin da güclü şəkildə dəstəklədiyi sülh razılaşmasını əldə etməyə yaxındır. Bu gün ABŞ-ın razılaşmanın əldə olunması üçün nələr edə biləcəyini müzakirə etmək üçün bir aradayıq”, - deyə A.Blinken qeyd edib.

Qeyd edək ki, 2020-ci ildə əldə edilmiş tarixi zəfərdən sonra Vaşinqton vasitəçilik missiyasını üzərinə götürüb bir neçə dəfə xarici işlər nazirləri səviyyəsində görüşlər təşkil etsə də, bu təşəbbüslər uğurla alınmayıb. Əsas səbəb isə ABŞ-nin vasitəçilik missiyası zamanı tərəfsiz görünməyə çalışsa da, sonradan Ermənistanı dəstəkləyən birtərəfli mövqe sərgiləməsi ilə uğursuzluğa düçar olub.

Azərbaycanın təklif etdiyi ikitərəfli danışıqlar formatında sülh prosesinin irəliyə aparılması, iki tərəf arasında bir sıra mühüm razılaşmaların əldə edilməsi bölgədə maraqlı olan güc mərkəzlərini yenidən prosesə daxil olmağa həvəsləndirib. Əvvəlki təşəbbüslərə əsaslanaraq bu səylərin hansısa nəticə verəcəyini söyləmək bir qədər müəmmalıdır. Dəyişməyən bir fakt var ki, o da Bakının sülh üçün irəli sürdüyü əsas şərtlərdir. Buraya Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin sözdə deyil, əməldə tanınması daxildir. Söhbət Ermənistan konstitusiyası və qanunvericilik aktlarında ölkəmizə qarşı əksini tapan ərazi iddialarıdır. Azərbaycan bu iddiaların Ermənistan konstitusiyasından çıxarılmasını tələb edir və sülh sazişinin ancaq bundan sonra imzalana biləcəyini ən ali səviyyədə açıqlayır.

Digər tərəfdən, bölgədə sülh prosesinə əsas əngəl yaradan məqamlardan biri də elə Qərb dövlətləri tərəfindən Ermənistanın silahlandırılması, bununla da revanşist qüvvələrdə və İrəvanda eyforiya hissinin yaranmasına rəvac verilməsi faktıdır. İrəvanın müdafiə silahları ilə təmin edildiyi yalanları elə İrəvanla Paris arasında imzalanmış son hərbi müqavilə əsasında Ermənistana ”Sezar” artilleriya qurğularının verilməsi faktı ilə ifşa olundu. Belə bir yanaşma fonunda Vaşinqtonun vasitəçilik missiyasını yenidən üzərinə götürmək cəhdlərinin nə dərəcədə effektiv olacağı sual doğurur. Yeri gəlmişkən, sülh prosesinə əngəl yaradan faktlar Vaşinqtonda elə NATO rəhbərliyinin də diqqətinə çatdırılıb.

*Tərəflər ABŞ-nin da güclü şəkildə dəstəklədiyi sülh razılaşmasını əldə etməyə yaxındır*

*Sülh sazişi layihəsi üzrə əhəmiyyətli irəliləyişə baxmayaraq, Ermənistanın Konstitusiyasında ölkəmizin ərazi bürövlüyü və suverenliyinə qarşı davam edən iddialar*

Xarici işlər naziri Ceyhun Bayramov NATO Zirvə görüşündə iştirakı çərçivəsində NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina ilə görüşüb.

Postmünaqişə dövründə bölgədə mövcud təhlükəsizlik vəziyyətindən bəhs edən nazir Ceyhun Bayramov, Ermənistan tərəfindən mülki şəxslərə qarşı mina təhdidinin davam etdirilməsi, Ermənistanın sürətlə silahlanması faktına diqqət çəkib. Bununla yanaşı, Azərbaycanın Ermənistanla sülh prosesinin əsas elementlərinin təşəbbüskarı kimi bölgədə sülh və sabitliyin bərqərar edilməsində maraqlı tərəf olduğu xatırlanıb. Sülh sazişi layihəsi üzrə əhəmiyyətli irəliləyişə baxmayaraq, Ermənistanın Konstitusiyasında ölkəmizin ərazi bürövlüyü və suverenliyinə qarşı davam edən iddialar xatırlanıb.

Göründüyü kimi, rəsmi Bakının sülh şərtləri dəyişməz olaraq qalır. Prosesin davamlı hal alması və məntiqi sonluqla tamamlanması üçün İrəvanın atacağı addımlar və beynəlxalq birliyin sərgiləməli olduğu mövqe bəllidir. Ölkəmizin suverenliyi, ərazi bütövlüyü heç bir halda şübhə altına alına bilməz. Sülh sazişi bu istiqamətdə gələcək təhdidləri və çağırışları tamamilə ortadan qaldıra biləcək hüquqi sənəd qüvvəsində olmalıdır.

***✍ Ləman Əliyeva***

MÜZAKİRƏ



## Türk dünyasına yol göstərən Qarabağ Bəyannaməsi

■ Qütbləşmənin dərinləşdiyi hazırkı həssas məqamda türk dövlətləri Şuşadan dünyaya vahid güc mərkəzi kimi səslənə bildi

■ Qarabağ Bəyannaməsinin qəbul edilməsi haqsız olaraq Ermənistanın yanında dayanmaq istəyən, müdafiə etmək yolunu tutan bir çox dövlətlərin əl-qolunu bağlayır

■ Qarabağ Bəyannaməsi TDT-nın bundansonrakı inkişafında həllediçi rol oynayacaq

▸▸ Səh. 2

GÜNÜN FOTOSU...



**İspaniya finalda**

GÜNÜN SİTATI

*Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması və bir sıra ikitərəfli məsələlərin həlli təkcə hər iki ölkə üçün deyil, bütövlükdə region üçün əhəmiyyətli təsirə malikdir*



**Stefan Düjarrik,**
BMT Baş katibinin sözçüsü

KARİKATURA



**“TikTok”un qurbanına çevrilənlər**

## Sülh üçün parlament diplomatiyası

**Aydın Mirzəzadə,**
Milli Məclisin deputatı

Parlament sədrlərinin görüşündə Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanın milli maraqlarını qətiyyətlə qoruyur.

▸▸ Səh. 3

STATİSTİKA



**■ Bu ilin yanvar-iyun ayları ərzində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 23,4 min şəxsə əlillik təyin edilib.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məlumat yayıb. Bildirilib ki, onlardan 11,5 mininə ilkin, 11,9 mininə təkrar əlillik təyinatı aparılıb.



▸▸ Səh. 7

## Mənzil sahibləri necə aldadılırlar?

**PREZİDENTİN İŞ GÜNÜ**

## Sərəncam



**“Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibi təsdiq edilib. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.**

Sərəncamla “Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxsin Müşahidə Şurası aşağıdakı tərkibdə təsdiqlənib:

Müşahidə Şurasının sədri

Bəşir Hacıyev - Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

Müşahidə Şurasının üzvləri:

Elnur Əliyev - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini

Sarvan Cəfərov - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Namiq Hümmətov - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini

Azadə Hüseynova - Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini.

***

**Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti Laçın rayonuna əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxs olacaq.**

Bu, Prezident İlham Əliyevin imzaladığı Fərmanla Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsinə edilən dəyişiklikdə əksini tapıb. Bundan əvvəl Xidmətin fəaliyyət sahəsi Kəlbəcər rayonunu da əhatə edirdi.

## Əmək pensiyalarının hesablanması qaydası dəyişdirildi

**Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş “Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”nda dəyişiklik edilib.**



Baş Nazir Əli Əsədov bununla bağlı Qərar imzalayıb.

Qərara əsasən, Qaydada aşağıdakı dəyişikliklər edilib:

- 5.10-cu bənddə “20 ildən” sözləri “25 ildən (Qanunun 2024-cü il yanvarın 1-dək qüvvədə olan normaları əsasında əmək pensiyası təyin edilənlərə münasibətdə 20 ildən)” sözləri ilə əvəz edilsin;

- aşağıdakı məzmunda 5.11-ci bənd əlavə edilsin:

“5.11. Hərbi xidmətdən buraxılarkən 25 təqvim ili hərbi xidmət müddətini tamamlamamış aşağıdakı hərbi qulluqçulara güzəştli şərtlərlə yaşa görə əmək pensiyası Qanunun 2024-cü il yanvarın 1-dək qüvvədə olan normaları əsasında hərbi xidmətdən buraxıldığı gündən təyin edilir:

5.11.1. 2024-cü il yanvarın 1-dək 20 təqvim ili və daha çox hərbi xidmət etmiş;

5.11.2. 2024-cü il yanvarın 1-dək azı 17 təqvim ili hərbi xidmət etmiş və hərbi xidmətdən buraxılanadək 20 təqvim ili hərbi xidmət müddətini tamamlamış.”.

Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

## Azərbaycan və Ermənistan sülh sazişi imzalamağa yaxındır

**Azərbaycan və Ermənistan sülh sazişi imzalamağa yaxındır, hər iki ölkə buna nail olmaq üçün səy göstərir. “Report” Ermənistan KİV-ə istinadən xəbər verir ki, bu barədə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbəri Samanta Pauer İrəvanda keçirdiyi mətbuat konfransında bildirib.**

“Bu gün Ermənistan onilliklərlə davam edən münaqişəyə son qoya biləcək sülh sazişi imzalamağa yaxındır. Ermənistan və Azərbaycan hökumətlərinin nümayəndələri barışığa yönəlmiş danışıqları davam etdirirlər. ABŞ Ermənistanın bu tarixi məqamdan istifadəsinə kömək etmək üçün əlindən gələni edəcək”, - o vurğulayıb.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Türk dünyasına yol göstərən Qarabağ Bəyannaməsi

*İyulun 5-6-da regional və beynəlxalq güc mərkəzinə çevrilən Türk Dövlətləri Təşkilatına (TDT) daxil olan ölkələrin liderləri Şuşa şəhərində keçirilən qeyri-formal sammitdə öz imzaları ilə tarix yazdılar. Şuşa Bəyannaməsindən sonra Şuşada imzalanan Qarabağ Bəyannaməsi dünyaya, türk dünyasına növbəti mühüm mesajlarını verdi.*



## Müzakirə

■ **Milli Məclisin deputatı Bəhruz Məhərrəmov hesab edir ki, Qarabağ Bəyannaməsi türk dünyası tarixində yeni mərhələ hesab olunmalıdır. İlk növbədə ona görə ki, qütbləşmənin dərinləşdiyi hazırkı həssas məqamda türk dövlətləri Şuşadan dünyaya vahid güc mərkəzi kimi səslənə bildi.**

Deputat eyni zamanda qeyd edib ki, sənədin Şuşada imzalanması və “Qarabağ Bəyannaməsi” adlandırılması özlüyündə simvolik və prinsipial əhəmiyyət daşıyır.

“Qarabağ və Şərqi Zəngəzur 30 il müddətində işğal və təcavüzə məruz qaldığı bir dövrdə qlobal miqyasda BMT qətnamələrinə rəğmən beynəlxalq hüququn bu pozuntusu ilə bağlı heç bir real reaksiyalar gəlməmiş, Gürcüstana, Ukraynaya, Moldovaya münasibətdə ərazi bütövlüyü məsələsində ”prinsipial” mövqe göstərən Qərb Azərbaycan torpaqlarının 20 faizinin işğalda qalmasına susqunluq nümayiş etdirmişlər. Azərbaycan işğal və təcavüzə özünün güc və imkanları hesabına, hərbi-siyasi yolla son qoymuş, hazırda Livan ölçüdə ərazidə böyük quruculuq və bərpa prosesi böyük uğurla davam etdirilir. Həmçinin işğaldan azad olunmuş ərazilərdə əhalinin 30 illik məcburi köçkün həyatından sonra ləyaqətli şəkildə qayıdışının təmin olunması həyata keçirilir. Eyni zamanda, Azərbaycanın artan güc və imkanları dəməyə əsas verir ki, bölgədə məhz Bakının əməliyyat şəraitinə tam nəzarət etməsi gələcəkdə Ermənistanın və havadarlarının hər hansı təxribat cəhdlərinin, o cümlədən beynəlxalq hüququn sərhəd toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyü prinsiplərinə istənilən təhdid perspektivini aradan qaldırır. Görünən odur ki, münaqişəsiz bölgə bir çox Qərb dövlətlərinin və təsisatlarının maraqları ilə üst-üstə düşmür. Bu mənada, böyük əhali, ərazi və təbii ehtiyatlar potensialı ilə Türk dünyasının Azərbaycanın yanında olduğunu bəyan etməsi özlüyündə ciddi tarixi-siyasi hadisədir. Bu o deməkdir ki, Azərbaycanın beynəlxalq hüquq normalarında əksini tapan prinsiplərə əsaslanan mövqeyi dünyanın yüksələn gücü hesab edilən türk dünyası tərəfindən qəti şəkildə dəstəklənməkdədir”.

B.Məhərrəmov qeyd edib ki, dərinləşən ziddiyyətlər fonunda Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzərində birmənalı şəkildə nəzarətə malik olan türk dünyasının bu mövqeyi özlüyündə regionda sülh və sabitlik arzu etməyən qlobal subyektlər üçün ciddi siqnaldır. Onun fikrincə, Qərb subyektləri yaxşı başa düşür ki, bu xətlər olmadan iqtisadi və ticari maraqların nəinki regionda, bütövlükdə Avrasiya məkanında təmin etmək mümkün olmayacaq.

“Türk dünyasının Qarabağdan və Türk dünyası üçün prinsipial əhəmiyyət daşıyan Şuşadan bir daha birlik nümayiş etdirməsi özlüyündə Qərbin regiona yönəli siyasətinin də konturlarına birmənalı şəkildə təsir edəcək. Bu mənada, Qarabağ Bəyannaməsi Azərbaycan diplomatiyasının böyük uğuru, həmçinin Prezidentin türk dünyasının birliyi adına, bütövlükdə türk tarixinin ən mühüm həmlələrindən biri hesab olunmalıdır”.

■ **Milli Məclisin deputatı Razi Nurullayev bildirib ki, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə toplantısının Şuşada keçirilməsi bütün dünyaya verilmiş növbəti mühüm mesaj idi. Onun sözlərinə görə, bu sammit bir daha “Qarabağ əzəli Azərbaycan torpağıdır” - deyə, reallığı Şuşadan dünyaya bəyan etdi.**



**Bəhruz Məhərrəmov,**
Milli Məclisin deputatı



**Razi Nurullayev,**
Milli Məclisin deputatı



**Elşad Mirbəşir,**
Milli Məclisin deputatı

Deputat Şuşada Qarabağ Bəyannaməsinin qəbul olunması və bu sənədə türk dövlətlərinin imza atmasını mühüm tarixi hadisə kimi önə çəkib. R.Nurullayev hesab edir ki, Qarabağ Bəyannaməsi türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik kökləri, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu bəyan edir. Eyni zamanda, türk xalqlarının qitə miqyasında töhfələrini, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rolunun ən yüksək dəyərini ortaya qoyur. Deputat eyni zamanda qeyd edib ki, Macarıstanın Baş nazirini, digər türk dövlətlərinin tənqid edən ölkələr, ermənipərəst qüvvələr var. Onlar hələ də türk liderlərinin Şuşaya gedişinə müsbət yanaşmırlar. Ona görə də hesab edir ki, “Qarabağ Bəyannaməsi” bu qüvvələrə tutarlı cavab vermək üçün Türkiyə ilə Azərbaycan arasında Şuşa Bəyannaməsinin imzalanması qədər əhəmiyyətli bir sənəddir.

“Dünya ölkələrinin başçıları Şuşaya toplaşdıqca Azərbaycan bir daha özünün gücünü, qüdrətini, dövlətçiliyini, oturuşmuş siyasətini dünyaya bariz şəkildə nümayiş etdirir. Bir daha bəyan edir ki, xain niyyətlərinizdən, gözügötürməzliyinizdən əl çəkin.

Qarabağ Bəyannaməsinin qəbul edilməsi haqsız olaraq Ermənistanın yanında dayanmaq istəyən, müdafiə etmək yolunu tutan bir çox dövlətlərin əl-qolunu bağlayır. Qarabağ Bəyannaməsi dünyanın güclü türk dövlətləri tərəfindən imzalanmış bir sənəddir. Bu dövlətlər bir daha Azərbaycanın Qarabağ üzərindəki suvereniyini təsdiq edirlər. Hesab edirəm, bu cür addımların atılması, Qarabağ Bəyannaməsinin imzalanması həm də Ermənistan hakimiyyətini vadar edir ki, öncə haqsız tələblərindən, düşüncələrindən əl çəksinlər, sonra da sülh müqaviləsini imzalamaq üçün Azərbaycanın irəli sürdüyü tələbləri yerinə yetirsinlər. Qarabağ Bəyannaməsi artıq o qüvvələri çıxılmaz vəziyyətə salır.

Onlar bütün dünyanın Azərbaycanın yanında olduğunu anlamalıdır. Ona görə də boş-boşuna atılıb-düşmək, mənasız tələblər irəli sürmək onlara heç nə qazandırmayacaq, əksinə, qonşu ölkələrlə düşmənçiliyi daha da dərinləşdirəcək”.

■ **Deputat Elşad Mirbəşir bildirir ki, Türk Dövlətləri Təşkilatı üzv ölkələrin qeyri-rəsmi sammitinin Şuşa şəhərində baş tutması böyük tarixi hadisədir. O, sammitdə iştirak edən dövlət başçılarının Şuşanı türk dövlətlərinin, türk dünyası həmrəyliyinin rəmzi hesab etməsinin təsadüfi olmadığını önə çəkib.**

E.Mirbəşir Azərbaycan Prezidentinin sammit çərçivəsində etdiyi çıxışa və diqqətçəkən məqamlara toxunub. Deputat ölkə başçısının Türk Dövlətləri Təşkilatını müasir dövrdə çox təsirli, qlobal siyasətdə yeri olan subyekt kimi görmək istəyi ilə bağlı fikrinə xüsusilə diqqət çəkib.

Qeyd edib ki, digər platformalarda olduğu kimi Azərbaycanın təşəbbüslərinin Türk Dövlətləri Təşkilatı strukturunun möhkəmləndirilməsinə xidmət edir, əməkdaşlıq imkanlarının genişləndirilməsini şərtləndirir və gələcəkdə bu platformanın subyektə çevrilməsinə imkan verir. Deputat Azərbaycan Prezidentinin toxunduğu digər bir məqama da diqət çəkib:

“Prezident çıxışında bildirdi ki, təşkilatın hazırki strukturu və maliyyələşməsi bütövlükdə üzv olan ölkələrin resurslarına uyğun deyil. Ona görə də Azərbaycan Prezidenti TDT-nin hesabına 2 milyon dollar vəsait köçürüldüyünü bildirməklə yeni bir nümunə ortaya qoydu. Bununla da gələcəkdə təşkilatın daha funksional olması, daha sürətlə strukturlaşması istiqamətində ilk addımı atmış oldu. Düşünürəm ki, bundan sonrakı mərhələdə digər üzv ölkələr də analoji addımlar atacaqlar”.

Deputat Azərbaycan Prezidentinin TDT çərçivəsində diqqət çəkdiyi digər prioritet istiqamətlərə toxunub:

“Prezident nəqliyyat, logistika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, bu istiqamətdə Azərbaycanın malik olduğu infrastrukturun əhəmiyyətinə toxundu, Azərbaycanın atdığı addımları xatırlatdı. Bu da ona dəlalət edir ki, nəqliyyat, logistika sahəsində TDT-a üzv olan ölkələrin maraqlarına uyğun əməkdaşlıq sisteminin qurulması Azərbaycan üçün prioritetdir. Bu istiqamətdə Azərbaycanın addımları təsirlidir. Məsələn, Prezident qeyd etdi ki, Bakı-Tbilisi-Qars dəmir yolu ilə yükdaşımaların həcmi 1 milyon tondan 2 milyon tona qədər yüksəldilib. Nəzərə almaq lazımdır ki, bu isitiqamətdə imkanların yaradılmasında Azərbaycan dövlətinin həlledici rolu olub. Ayrıca Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükkeçiricilik qabiliyyətinin 15 milyon tondan 25 milyon tona yüksəldilməsi ölkə Prezidenti tərəfindən qeyd edildi. Bu məqamlar bir daha göstərir ki, Azərbaycan həqiqətən də gələcəkdə əməkdaşlıq üçün çox unikal əlverişli şərtlərə sahibdir”.

> “
> *Qütbləşmənin dərinləşdiyi hazırkı həssas məqamda türk dövlətləri Şuşadan dünyaya vahid güc mərkəzi kimi səslənə bildi*
>
> *Qarabağ Bəyannaməsinin qəbul edilməsi haqsız olaraq Ermənistanın yanında dayanmaq istəyən, müdafiə etmək yolunu tutan bir çox dövlətlərin əl-qolunu bağlayır*
>
> *Qarabağ Bəyannaməsi TDT-nın bundansonrakı inkişafında həlledici rol oynayacaq*

E.Mirbəşir hesab edir ki, Sammitin əsas nəticəsi məhz Qarabağ Bəyannaməsinin imzalanmasıdır.

“Prezidentin də qeyd etdiyi kimi, Qarabağ Bəyannaməsinin imzalanması TDT-nın bundansonrakı inkişafında həlledici rol oynayacaq. 31 maddədən ibarət Bəyannamədə türk dövlətlərinin gələcək əməkdaşlığıla bağlı mövqeləri sərgilənir, çox vacib məsələlərlə bağlı strateji yanaşmaları öz ifadəsini tapır. Hesab edirəm ki, Qarabağ Bəyannaməsi türk dövlətlərinin konstitusiyasıdır, mütləq şəkildə Təşkilatın inkişafını sürətləndirəcək bir faliyyət strategiyasıdır. Bu baxımdan hesab edirəm, Azərbaycan növbəti dəfə çox mühüm tarixi səhifə formalaşdırdı. TDT-nın Şuşada keçirilən qeyri-rəsmi sammiti diqqəti həm də işğaldan azad etdiyimiz ərazilərə, xüsusən Qarabağın incisi olan Şuşaya çəkmiş oldu. Azərbaycan növbəti dəfə türk dünyasında həmrəyliyin möhkəmləndirilməsi, gələcək əməkdaşlıq istiqamətlərinin daha da genişləndirilməsi, qarşılıqlı maraqlara cavab verən mövqelərin formalaşdırılması baxımından olduqca təsirli bir addım atmış oldu”.

✍ *Tahirə Qafarlı*

# ŞƏT-lə əməkdaşlığın böyük gələcəyi var

***Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sədri, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə ŞƏT-in Astanada keçirilən Zirvə toplantısında iştirak etməsi və bu çərçivədə keçirdiyi görüşlər gündəmin əsas mövzuzu olaraq diqqətlə izlənir. ŞƏT sammitinin əhəmiyyəti, Azərbaycan dövlət başçısının keçirdiyi görüşlər və müzakirə olunan məsələlərlə bağlı suallarımızı siyasi şərhçi Aydın Quliyev cavablandırır.***

## Müsahib

- Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşü, sözsüz ki, dünya hadisəsidir. Söhbət dünya əhalisinin, təxminən, yarısını və dünyanın ümumdaxili məhsulunun, az qala, yarıdan çoxunu birləşdirən ölkələrin Zirvəsindən gedir. Şübhə etmirəm, dünyanın bütün ölkələrində Şanxay Əməkdaşlıq Təşkilatının qəbul edəcəyi qərarları izləyirlər.

Təbii ki, Azərbaycan Prezidentinin bu Zirvəyə ikinci dəfə qonaq qismində dəvət olunması əhəmiyyətli hadisədir. Şanxay Əməkdaşlıq Təşkilatının üzvləri Azərbaycansız bu qurumun perspektivini o qədər də güclü görmürlər. Azərbaycan Prezidentinin ŞƏT sammitinə dəvət olunması Azərbaycan-ŞƏT əməkdaşlığının gələcək perspektivlərinin böyük olmasından xəbər verir.

Bu onun ifadəsidir ki, Şanxay Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələr həm Azərbaycanın malik olduğu infrastruktur, nəqliyyat və logistika imkanlarına bələddirlər, həm də bu imkanların ŞƏT-in inkişafına, genişlənməsinə və potensiallarının tam üzə çıxmasına verəcəyi töhfələri bəribaşdan görə bilirlər. Ona görə də Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığının böyük gələcəyi var.

***- Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə sammitində Astana Bəyannaməsi qəbul olunub...***

- Astana Bəyannaməsinin qəbulu gözlənilən sənəddir. Bu sənəd Şanxay təşkilatının üzvü və tərəfdaşı olan ölkələrin ümumi iradəsini ifadə edir. Təşkilat, əsasən, iqtisadi, investitsiya, ticarət, əməkdaşlıq, bir-birinin mənafelərinin regional və beynəlxalq müstəvidə müdafiə olunması məsələlərinin zərurətini önə çəkir. Sözügedən Bəyannamə ŞƏT-in bundansonrakı fəaliyyətinin yol xəritəsi kimi də qəbul oluna bilər. Təbii ki, bu Bəyannaməyə uyğun olaraq dövlətlər arasında bundansonrakı dövrdə müəyyən konkret addımların atılacağı da şəksizdir. Sənədin ayrı-ayrı müddəaları əsasında Şanxay təşkilatının üzvü və tərəfdaşı olan ölkələr həm birlikdə, həm də üçlükdə gələcək fəaliyyətlərini müəyyənləşdirəcəklər.



**Aydın Quliyev,**
siyasi şərhçi

***- Astanada Azərbaycan və Çin dövlət başçılarının strateji tərəfdaşlıq haqqında imzaladığı Bəyannamənin ölkəmiz üçün əhəmiyyəti nədir?***

- Çin Avrasiya regionunun, Şərq-Qərb marşrutunun, eyni zamanda, Şanxay Əməkdaşlıq Təşkilatının aparıcı ölkələrindən biri sayılır. Buna görə də belə bir ölkə ilə Azərbaycanın strateji tərəfdaşlıq qurması olduqca vacib və əhəmiyyətlidir. Bu Bəyannamədə iki ölkənin regional və beynəlxalq məsələlərə, eləcə də investisiya, iqtisadi-ticari əlaqələrə baxışlarını və ümumi iradələrini ifadə edir. Eyni zamanda, çox əhəmiyyətlidir ki, bu Bəyannamə Azərbaycanla Çinin strateji tərəfdaşlığının çoxlu sayda istiqamətlər üzrə əsaslarını müəyyənləşdirir. O da vacibdir ki, Çin müharibədən sonra və Azərbaycanın gündəmə gətirdiyi sülh təşəbbüsləri əsasında regionda dayanıqlı sabitliyin yaradılmasını açıq şəkildə və birmənalı dəstəklədi. Çinin Azərbaycanın təşəbbüsü olan sülh prosesinə birmənalı dəstəyi, fikrimcə, Bəyannamənin incilərindən biri sayıla bilər. Biz xüsusilə də müharibədən sonra Çinin bu bölgədə sülh və təhlükəsizliyin, dayanıqlı sabitliyin bərqərar olunmasında nə qədər maraqlı olduğunu ilk dəfə bu sənəddə görə bilirik. Çin müxtəlif geosiyasi risklər üzündən Avropaya və dünyanın müxtəlif yerlərinə mal ixracında müəyyən çətinliklərlə üzləşdiyi bir vaxtda Azərbaycandan keçən Orta Dəhlizdə maraqlı olduğunu gizlətmir. Avropa ilə ən qısa və səmərəli əməkdaşlıq yolu, variantı olan Orta Dəhlizin tam potensialı ilə işləməsi üçün bölgəmizdə dayanıqlı sülh olmalıdır. Bu baxımdan, Bəyannamənin imzalanmasından sonra Ermənistanla sülh sazişinin bağlanması üçün Çinin Ermənistana, yumşaq desək, təsirləri artacaq.

Ona görə ki, Çinin Orta Dəhlizdə böyük marağı var və bu mənafeyin gerçəkləşməsi üçün Ermənistan Azərbaycanla sülh sazişini mütləq şəkildə imzalamalıdır. Bəyannamədən sonra Ermənistanla sülh sazişinin imzalanması daha çox mənada Azərbaycanla Ermənistanın işidirsə, həm də az bir qisim Çinin məsələsidir. Bundan başqa bir sıra məsələlərdə, xüsusilə də insan haqlarına münasibətdə dövlətlərin üzləşdiyi ikili standartlarla mübarizədə iki ölkənin imkanlarını və baxışlarını birləşdirməsi sənəddə ifadə olunur.

Bu da çox əhəmiyyətlidir. İlk dəfə olaraq bu Bəyannamə insan haqlarına yanaşmanın dövlətlərin, xalqların suverenlik prinsipi ilə əlaqələndirilməsi orijinal yanaşmalardan biridir. Demək olar ki, ilk dəfədir elə bir sənəd ortaya çıxır ki, insan haqlarına münasibət dövlətlərin, xalqların suverenlik prinsipinin vacib şərtlərindən biri kimi nəzərdən keçirilir. Bu da dünya ölkələrinin insan haqları adı altında bir-birinin daxili işlərinə müdaxiləsi, o cümlədən Azərbaycanın və Çinin daxili işlərinə müdaxiləsi cəhdlərinin qarşısını almaqda çox əhəmiyyətli rol oynaya bilər.

***- Azərbaycan və Çin dövlət başçıları yeni strateji əməkdaşlıq çərçivəsində hansı mesajları verdilər?***

- Çinin və Azərbaycanın mesajlarında bu iki ölkənin birgə səylərinin regional, qlobal müstəvidə sülhə, əməkdaşlığa, ticarətə, inkişafa, investisiyaya və nəqliyyat əlaqələrinin inkişafına yönəldiyi bilmənalı ifadə olunur. Hər fikirdən, hər cümlədən tutmaq mümkündür ki, Çin-Azərbaycan əməkdaşlığı hər hansı bir başqa ölkəyə qarşı çevrilmir. İki ölkənin mesajları onların hər ikisinin beynəlxalq hüququn prinsiplərinə hörmətlə yanaşdığını ifadə edir. Xüsusilə də dövlətlərin ərazi bütövlüyünə birgə baxış dövlətlərin daxili işlərinin toxunulmazlığına birgə baxış, separatizmə qarşı yönəlmiş fikirlərin üst-üstə düşməsi olduqca təqdirəlayiqdir.

***- Azərbaycanın ŞƏT-ə üzvlüyü ilə bağlı perspektivdə nələr var? Bu, baş verərsə, dövlətimiz, region üçün hansı gözləntilərdən danışmaq olar?***

- Astana Zirvəsi Azərbaycanın da Şanxay Əməkdaşlıq Təşkilatına və bu təşkilata doğru yolunu xeyli dərəcədə genişləndirdi. Əlbəttə, indidən söyləmək çətindir ki, Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatının həqiqi üzvlüyü barədə qərar verəcək, ya verməyəcək. Şəxsən mənim düşüncəmə görə, belə potensiallara malik təşkilatın tam hüquqlu üzvü olmaq Azərbaycan üçün pis deyil. Yenə deyirəm: bununla bağlı qərar vermək ölkə Prezidentinin səlahiyyətlərində olan məsələlərdir. Bütün məsələləri dövlətçilik nöqteyi-nəzərdən tam və dəqiq şəkildə görmək, qiymətləndirmək onun səlahiyyətləri və imkanları çərçivəsindədir.

Şanxay Əməkdaşlıq Təşkilatı ilə Azərbaycanın yaxınlaşması bu təşkilatın inkişafına böyük yeniliklər gətirib. Əlbəttə, orada iştirak edən bəzi dövlət rəhbərləri Azərbaycanın bu platformaya tam hüquqlu üzv olmasını istədiklərini bildirdilər, bu, yaxşı haldır. Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatına yük olacaq bir ölkə kimi daxil olmayacaq. Əksinə, Azərbaycanın özünün malik olduğu infrastruktur imkanları bu təşkilatın gələcək inkişafında böyük rol oynaya bilər. Orta Dəhliz Azərbaycanın dəhlizidir. Dəhliz Şanxay Əməkdaşlıq Təşkilatının Avropaya və qlobal miqyasa çıxışıdır, demək olar ki, ən geniş və ən səmərəli bir pəncərədir. Bu mənada Şanxay Əməkdaşlıq Təşkilatının özünün də Azərbaycana ehtiyacı var. Bunu açıq demək və danmamaq lazımdır. 2015-ci ildə Azərbaycan tərəfdaş statusu ilə bu platformaya qəbul olunandan bir il sonra dialoq tərəfdaşına çevrildi. Yalnız Azərbaycanın addımlarından sonra Şanxay Əməkdaşlıq Təşkilatı genişləndi. O vaxta qədər Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə necə yaranmışdısa elə idi, yəni altı dövlətdən ibarət idi. Azərbaycan bu təşkilata yaxınlaşandan sonra onu tərkibində müəyyən genişlənmə oldu. O cümlədən İran, Pakistan, Hindistan ŞƏT üzvü oldu və üzvlərin sayı 9-a çatdı. Daha konkret desək, Şanxay Əməkdaşlıq Təşkilatının genişlənməsi müəyyən qədər Azərbaycanın bu quruma təqdim etdiyi imkanların təsirindəndir.

> *Şanxay Əməkdaşlıq Təşkilatının üzvləri Azərbaycansız bu qurumun perspektivini o qədər də güclü görmürlər*

Ona görə də Azərbaycanın təşkilata üzv qəbul olunması yolunda ciddi maneələr görmürəm. Sadəcə, bunun dövlət mənafelərinə, dövlətin perspektiv maraqlarına hansı dərəcədə - iqtisadi, siyasi, təhlükəsizlik nöqteyi-nəzərindən nə qədər uyğun olub-olmadığı barədə dövlət başçısı qərar verməlidir. Yəqin ki, gələcəkdə bununla bağlı müzakirələr aparılacaq, Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı ilə bağlı daha konkret mövqeyini ortaya qoyacaq. Bu, geniş bir platformadır. Onun Azərbaycana faydası olduğu qədər Azərbaycanın da Şanxay Əməkdaşlıq Təşkilatına qiymətli töhfələri var və olacaq. Azərbaycanın həmin təşkilatın üzvlüyündən asılı olmayaraq, onsuz da həmin qurumun üzvü olan əsas aparıcı ölkələrlə ikitərəfli müstəvidə, demək olar ki, əlaqələrimiz çox yaxşıdır.

✍ ***Tahirə Qafarlı***

# Sülh üçün parlament diplomatiyası



***Azərbaycan və Ermənistan arasında sülh danışıqları çərçivəsində müxtəlif formatlarda görüşlər davam etdirilir. Bu görüş formatları içərisində diqqəti cəlb edənlərdən biri də parlament sədrlərinin Cenevrədə bir neçə dəfə müzakirələr aparmasıdır. Son məlumatlara görə, Milli Məclisin sədri Sahibə Qafarova və erməni spiker Alen Simonyan arasında növbəti görüş planlaşdırılır və ünvan yenə də Cenevrədir. Parlament sədrlərinin müzakirələrinin sülh prosesinə hansı töhfələri ola bilər? Daha çox hansı məqamlar müzakirə edilir?***

## Aktual

■ **Milli Məclisin deputatı Arzu Nağıyev bildirib ki, sülh danışıqları həm xarici işlər nazirləri səviyyəsində, həm də sərhədlərlə bağlı yaradılmış birgə komissiyalar çərçivəsində aparılır. Onun sözlərinə görə, müzakirələrin həm də parlament diplomatiyası müstəvisində aparılması prosesə müəyyən impuls qata bilər.**

A.Nağıyev spiker Sahibə Qafarovanın erməni həmkarı Alen Simonyanla görüşü zamanı Azərbaycanın haqlı mövqeyini faktlarla ortaya qoymasına diqqət çəkib. Onun sözlərinə görə, Azərbaycan həqiqətlərinin dünyaya, eləcə də Ermənistan ictimaiyətinə növbəti dəfə parlament səviyyəsində çatdırılması, erməni ictimaiyyətinin sülh prosesinə adekvat yanaşması üçün mühüm amillərdən biridir və sülhə xidmət edir.

"Hətta parlament qrupları səviyyəsində Azərbaycan, Gürcüstan, Ermənistan parlamentlərinin görüşləri də məhz bu məqsədi daşıyır. Dövlət səviyyəsində aparılan danışıqlarla bərabər qanunvericilik orqanlarının görüşləri də müsbət nəticə verə bilər.

Çünki hər bir parlament, eyni zamanda müəyyən bir elektoratı təmsil edir. Sülh müqaviləsi bağlanandan sona qanunların ratifikasiyasının və digər məsələlərlə bağlı müzakirələr labüddür. Ona görə də deputatların növbəti görüşü də müsbət dəyərləndirilməldir. Ümidvarıq ki, parlament səviyyəsində keçirlən görüşlər sülh prosesinə təsir edən amillərdən biri olacaqdır".

■ **Deputat Hikmət Məmmədov bildirib ki, Ermənistan və Azırbaycan arasında sülhün əldə olunması mürəkkəb proses oluğu üçün əlavə səylər tələb edir.**

Onun sözlərinə görə, bu mənada rəsmi xarici siyasət institutları və liderlər arasında aparılan görüşlərlə bərabər, həm də hər iki parlamentin potensialı da prosesə cəlb olunub. "Həlledici olmasa da, parlament diplomatiyası da bu prosesə töhfələrini verə bilər. Sülh dayanıqlı, etibarlı, uzunmüddətli olmalıdır və bunun üçün də qanunverici orqanların bu prosesə dəstəyi çox vacibdir. Ona görə də belə görüşlərin keçirilməsi mühümdür. Nəticədə sırf qanunvericilik kontekstində sülh prosesinə maneə ola biləcək, önünü kəsə biləcək nələr varsa bunlar nəzərə almaqla aradan qaldırıla bilər. Ona görə də düşünürəm ki, parlament diplomatiyası xarici siyasətin birbaşa predmeti olmasa da, bütün hallarda milli diplomatiyanın resurslarından biri hesab edilir. Bu mənada Azərbaycan və Ermənistan deputatlarının görüşü vacib görüşlərdən biri kimi səciyələndirilməlidir". H.Məmmədov hazırda danışıqlar prosesində çox mühüm mərhələyə qədəm qoyulduğunu deyib. O, Azərbaycan Prezidentinin qeyd etdiyi fikirlərə istinad edərək, Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının substantiv mərhələsinə cəmi 6 ay olar ki, qədəm qoyulduğunu xatırladıb. Deputat bildirib ki, 2023-cü il sentyabrın 19-20-dən sonrakı mərhələ substantiv mərhələdir. Ona görə ki, sülhə maneə olan əsas problem aradan qaldırılıb və Qarabağda separatçılığın yuvası ləğv edilib. "Hesab edirəm ki, parlament deputatlarının görüşü yeni substantiv mərhəldə ilk görüşdür. Ümid edirik ki, yaxşı nəticələrin əldə olunması üçün zəmin yarada bilər".

■ **Deputat Aydın Mirzəzadə bildirib ki, Azərbaycan öz torpaqlarını Ermənistan işğalından azad etdikdən sonra İrəvanla normal qonşuluq qurmaq istəyini ortaya qoydu. Bunun üçün prinsiplər irəli sürülüb, sülh müqaviləsi üzərində işlər gedir, vaxtaşırı xarici işlər nazirlər və baş nazirin müavinləri səviyyəsində görüşlər keçirilir:**

"Bütün bunlarla yanaşı Beynəlxalq tədbirlər çərçivəsində Parlament sədrlərinin görüşü də böyük əhəmiyyət kəsb edir. Bu, artıq hər iki ölkə cəmiyyətinin bir-birinə inamın artmasına, tək dövlətlərarası deyil, xalq diplomatiyası metodlarının da işə düşməsinə səbəb olur. Parlament vətəndaşlar tərəfindən seçkili bir orqandır və onun rəhbərlərinin görüşü eyni zamanda cəmiyyətin fikrinin qarşı tərəfə çatdırılmasında böyük rol oynayır. Parlament sədrlərinin görüşündə Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan milli maraqlarını qətiyyətlə qoruyur. Azərbaycan sülh istəyini ortaya qoyur, erməni tərəfinin vaxtaşırı dövriyyəyə buraxdığı yalanları ifşa edir və qarşı tərəfi konstruktiv münasibətlərə dəvət edir. Qarşıdan gələn görüşlərdə də ikitərəfli inamın artırılması üçün Azərbaycan tərəfdən müvafiq addımların atılacağını gözləmək olar".

> *Ümidvarıq ki, parlament səviyyəsində keçirlən görüşlər sülh prosesinə təsir edən amillərdən biri olacaqdır*

> *Sülhün əldə olunması mürəkkəb proses oluğu üçün əlavə səylər tələb edir*

> *Parlament sədrlərinin görüşündə Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanın milli maraqlarını qətiyyətlə qoruyur*

✍ ***Tahirə Qafarlı***

# Xarici şirkətlərin Qarabağa marağı artıb

## Layihə

***Qarabağın yenidən qurulmasına yerli şirkətlərlə yanaşı, xarici investorlar da böyük maraq göstərirlər. Bununla bağlı KOBİA-ya 1950-dən çox müraciət daxil olub. Müraciətlərin 1450-dən çoxu yerli, 500-dən çoxu isə xarici müraciətlərdir. Ümumi müraciətlərin 980-dən çoxu investisiya layihəsidir ki, onun da 48 faizi ticarət və xidmət, 22 faizi sənaye, 22 faizi kənd təsərrüfatı, 8 faizi isə tikinti, turizm, səhiyyə, təhsil və mədəniyyət sahələrini əhatə edir. Agentliyə müraciət edən sahibkarlara işğaldan azad edilmiş ərazilərin iqtisadi və investisiya potensialına dair ətraflı məlumat, peşəkar məsləhət xidməti, müvafiq dövlət qurumları ilə əlaqələndirmə, yerli tərəfdaşların tapılması istiqamətində dəstək və xidmətlər göstərilir.***



Xatırladaq ki, "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə iqtisadi və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi, sosial sığorta və digər güzəştlərin tətbiqi, habelə həmin ərazilərdə özəl təşəbbüslərin stimullaşdırılması, investisiya təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi tapşırılıb. Hazırda işğaldan azad edilmiş ərazinin rezidentləri üçün bir sıra güzəştlər mövcuddur.

Belə ki, Qarabağda fəaliyyət göstərən rezidentlər 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azaddır. Bu azadolma ərazinin rezidentinin həmin ərazidəki fəaliyyəti ilə bağlı əldə olunan satışdankənar gəlirlərinə də şamil edilir. Həmçinin işğaldan azad edilmiş ərazilərdə ƏDV ödəyicisi olan rezidentlər tərəfindən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnika, texnoloji avadanlıqlar və qurğular, habelə xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində ƏDV-dən azaddır. Bununla yanaşı, işğaldan azad olunmuş ərazinin rezidenti olan hüquqi şəxslərin səhmdarları və payçılarının dividend gəlirləri də 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində vergidən azad edilib.

### Türkiyə şirkətləri Qarabağda 50-dən çox layihə icra edir

**Qeyd edək ki, bu gün Qarabağın yenidən qurulmasında ən aktiv iştirak edən Türkiyə şirkətləridir.** Hazırda Azərbaycanda 4 mindən çox Türkiyə şirkəti fəaliyyət göstərir. 20-dən çox Türkiyə şirkəti həmin ərazilərdə 50-yə yaxın layihə icra edir. Həmin layihələrin ümumi dəyəri 4 milyard ABŞ dolları təşkil edir. Hazırda türk şirkətləri Toğana-Kəlbəcər-İstisu yolunun tikintisində iştirak edirlər. Bu yol başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir.

Layihəni Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 3 nömrəli Magistral Yolların İstismarı MMC-si ilə subpodratçı şirkətlər olan Türkiyənin "Kolin İnşaat" və "Cingiz İnşaat" şirkətləri birgə icra edirlər. Yeri gəlmişkən türk şirkətləri bu yolda xüsusi hazırlıq tələb edən tunel çəkilişlərini yerinə yetirir. Belə ki, Toğanalı-Kəlbəcər-İstisu yolunda 11 kilometr 600 metr uzunluğu olan Murovdağ tunelini Türkiyənin "Çingiz İnşaat" şirkəti inşa edir. İnşasının 2025-ci ildə tamamlanması gözlənilən tunel dünyadakı ən uzun tunellərdən biri olacaq. Bu şirkət eyni zamanda 3,5 kilometrlik Laçın-Kəlbəcər tuneli də inşa edir. Ümumilikdə, Qarabağ ərazisində Türkiyə şirkətləri tərəfindən toplam 62 kilometr uzunluqda tunel tikilir.

### Muzeylərin tikintisi italyanlara həvalə olunub

**Bu gün İtaliya şirkətləri də Azərbaycanın işğaldan azad olunan ərazilərində aktiv fəaliyyət göstərirlər.**

Hazırda Azərbaycanda İtaliyanın 140 şirkəti iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərirlər. İtaliya şirkətlərinin gördüyü işlər miqyasına görə Türkiyə şirkətlərindən sonra ikinci yerdədir. Məsələn, Memorial və Zəfər muzeyləri işğaldan azad olunmuş şəhərlərdə İtaliya şirkətləri tərəfindən dizayn olunub və tikiləcək. Bundan başqa, İtaliyanın "Ansaldo" şirkəti işğaldan azad olunmuş dörd rayonda - Ağdam, Füzuli, Qubadlı və Kəlbəcərdə su elektrik stansiyalarını avadanlıqlarla təchiz edib.

### Macar şirkətləri Cəbrayılın Soltanlı kəndini qururlar

**Azad olunmuş ərazilərin yenidən qurulmasına töhvə verən ölkələrdən biri də Macarıstandır. Belə ki, Macarıstan şirkətləri işğaldan azad olunmuş ərazilərinin bərpasında fəal iştirak edir.**

Macar şirkətləri tərəfindən Cəbrayıl rayonunun Soltanlı kəndinin yenidən qurulması həyata keçirilir. Bununla belə, Macarıstan şirkətləri Qarabağ regionunda, xüsusilə su və çirkab su təmizləyici qurğuların yenidən qurulması, su təchizatı şəbəkələri və yaşıl enerji layihələri ilə bağlı gələcək layihələrdə iştirak etməyə can atırlar. Macarıstan institutları və şirkətləri hazırda layihə imkanlarının müəyyənləşdirilməsinə diqqət yetirirlər. Artıq bir neçə şirkət Ələt Azad İqtisadi Zonasına və Azərbaycanın digər sənaye parklarına böyük maraqla səfər edib. Gələcəkdə Macarıstan şirkətlərinin Qarabağın yeni sənaye parklarına da səfər edəcəyi gözlənilir.

### Belarus Qarabağda kənd təsərrüfatı şəhərciyi salacaq

**Belarus da Qarabağa qayıdışın sürətli həyata keçirilməsinə dəstək verənlər dost ölkələrdəndir. Qeyd edək ki, Belarus noyabrda Ağdam rayonunda kənd təsərrüfatı şəhərciyi layihəsinin Konsepsiyasını təqdim etməyi planlaşdırır.** Bu barədə Belarusun Baş nazirinin müavini İqor Petrişenko bildirib. Bu layihə Bakıda təqdim olunacaq: "Belarus Qarabağın dirçəlişinə konkret töhfə verəcək. Əsas layihələrimizdən biri Ağdam rayonunda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı da daxil olmaqla inteqrasiya olunmuş müasir kənd təsərrüfatı şəhərciyinin yaradılması, bu kənd təsərrüfatı kompleksinin işçiləri və onların ailə üzvləri üçün yaşayış və sosial obyektlərin tikintisi olacaq. Bu hərtərəfli layihənin konsepsiyasını bu ilin noyabrında Bakıda təqdim etməyi planlaşdırırıq". Layihəyə Ağdam rayonunda 420 ailə üçün nəzərdə tutulmuş qəsəbənin salınması da daxildir. Xatırladaq ki, Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatı şəhərciyinin salınması təşəbbüsü Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana bu yaxınlarda dövlət səfəri zamanı Belarus tərəfindən irəli sürülüb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

### Çin şirkətləri "yaşıl enerji"yə maraq göstərir

**Qarabağda fəaliyyət göstərməyə Çin şirkətləri də maraqlıdır. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov deyib ki, indiyə kimi bu məqsədlə 10-a yaxın Çin şirkəti müraciət edib:**

"Çin şirkətlərinin ölkədə yaradılan biznes və investisiya mühitindən yararlanmaq imkanları böyükdür. KOBİA-nın əsas hədəflərindən biri Qarabağda biznes sektoruna dəstək olmaqdır. Azad edilmiş zonalarda həm xarici, həm də yerli sektora edilən müraciətlərə baxırıq. Burada prioritet sahələr tikinti, turizm, mədənçıxarma, nəqliyyat, kənd təsərrüfatı, istehsalat və digər sahələrdir".

Hazırda Çin şirkətləri Azərbaycanda bir sıra layihələrdə iştirak edir. Azərbaycan Energetika Nazirliyi ilə "China Gezhouba Group Overseas Investment" şirkəti arasında Anlaşma Memorandumu mövcuddur. Həmin anlaşmaya əsasən, Çin şirkəti ilə azad edilmiş ərazilərdə günəş elektrik stansiyalarının inşası məqsədilə müvafiq tədbirlər görülür. Həmçinin, Çinin "Huawei" şirkəti tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "ağıllı kənd" və "ağıllı şəhər" təşəbbüslərinin gerçəkləşməsində müəyyən uğurlar əldə edilib. Ümumiyyətlə, "Huawei" ən son qabaqcıl texnologiyaları Azərbaycanda təqdim etməyə və gələcəkdə "Ağıllı kənd"lərin inkişafında iştirak etməyə bundan sonra da hazır olduğunu bildirib. "Ağıllı şəhər" və "ağıllı kənd" texnologiyalarının təchizatçısı kimi şirkətin bu sahədə böyük təcrübəsi var və onun 100-dən çox qlobal layihəsi mövcuddur. Qarabağda "ağıllı kənd" və "ağıllı şəhər" üzrə qabaqcıl texnologiyaları təmin etmək üçün "Huawei" ən son məhsul və texnologiyaları təchiz edir. Şirkət Azərbaycanda ilk dəfə "Qiqabit AirPON" texnologiyasını istifadə edir. Bu texnologiya fiber-optik xətlərin çəkilişini 10 kilometrdən 1 kilometrə qədər qısalda bilir. Beləliklə, şəbəkənin qurulması sürətləndirilir və xərclərə qənaət olunur. "Huawei" həmçinin "ağıllı kənd" layihəsinin birinci mərhələsində Qarabağda "ağıllı tədris", "ağıllı səhiyyə" və "ağıllı kənd təsərrüfatı" sistemləri də həyata keçirir.

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Dəyərindən dəfələrlə baha satılan brend məhsullar

***İtaliya məhkəmələri dəbdəbəli istehlakçı markaları olan "Dior" və "Armani"nin istehsal əməliyyatlarına müvəkkillər təyin edib. Buna səbəb İtaliyada Milan prokurorları tərəfindən yerli fabriklərdə iş şəraiti ilə bağlı araşdırma zamanı ortaya çıxan faktlar olub. Şirkətlərin araşdırmasına qeyri-leqal işçilərin işə götürülməsi, ucuz məhsulların baha qiymətə satılması da yer alıb.***



Belə ki, 201 milyard dollarlıq sərvətlə dünyanın üçüncü ən zəngin adamı olan fransız Bernard Arnaultun sahibi olduğu "Dior"un qeyri-qanuni işçilər işlədən tədarükçülərin 57 dollara istehsal etdiyi çantaları 2 min 780 dollara satdığı məlum olub. İtalyan prokurorları xüsusilə kiçik emalatxanalarda işləyən çinli işçilərin pis şəraitdə işləməyə məcbur edildiyinə diqqət çəkib.

Eyni ilə, "Armani" üçün aparılan araşdırmada 99 dollarlıq çantaların 1900 dollara satıldığı müəyyən edilib. Bu pozuntulardan sonra məhkəmə "Dior" və "Armani"nin İtaliyadakı istehsal əməliyyatlarına qəyyumların təyin edilməsinə qərar verib. Qəyyumun təyin edilməsi ilə markaların istehsal proseslərinə nəzarət etmək və iş şəraitini yaxşılaşdırmaq məqsədi daşıyır. Bu addım moda sənayesində etik standartların və işçilərin hüquqlarının qorunması üçün mühüm addım hesab olunur.

Qeyd edək ki, Azərbaycan bazarında da dəbdəbəli istehlakçı markalarının kifayət qədər məhsulları satılır. Təbii ki, qiymətlər "cib yandırır". Məsələn, bu markalardan birinin ölkəmizdəki rəsmi dilleri olan mağazasında kiçik ölçülü çantanın qiyməti 3360 manatdır. İtaliya məhkəmələrinin araşdırmasından məlum olur ki, sözügedən markalar istehsal qiymətini dəfələrlə şişirdirlər. Bu isə istər-istəməz pərakəndə bazara öz təsirini göstərir.

■ **Məsələni qəzetimizə şərh edən iqtisadçı-ekspert Əli Əlirzayev deyib ki, əslində, digər ölkələrlə müqayisədə Azərbaycan bazarında brend markaların alıcısı çox deyil:** "Bunun da səbəbləri məlumdur. İstehlakçıların alıcılıq qabiliyyəti o səviyyədə deyil. Əgər bizim bazarın strukturuna fikir versəniz görərsiniz ki, bazarda əsas üstünlüyü ucuz məhsullar təşkil edir. Ona görə ki, tələbat ucuz məhsullaradır. İstehlakçıların cəmi 3-5 faizi brend məhsul almaq qabiliyyətindədir. Digərləri ya ucuz məhsullar alır, ya da brend marka adı altında orijinal olmayan məhsullara üstünlük verirlər. Qiymət məsələsinə gəlincə, hesab edirəm ki, bu məhsulların dəyəri Azərbaycanda da şişirdilir. Bizdə bazar iqtisadiyyatıdır, dövlət sahibkarlıq subyektlərinin inkişafına dəstək verir. Bəzi qiyməti tənzimlənən məhsullar istisna olmaqla, sahibkarların qiymət siyasətinə müdaxilə edilmir. Sahibkarlar özləri bu məsələdə ədalətli davranmalıdırlar, istehlakçıların hüquqlarını tapdalamamalıdırlar. Elə qiymət müəyyən etməlidirlər ki, həm alan, həm də satan razı qalsın".

*Bəzi qiyməti tənzimlənən məhsullar istisna olmaqla, sahibkarların qiymət siyasətinə müdaxilə edilmir*

✍ **Rəna**

## XƏBƏRİNİZ OLSUN...




■ Bu ilin yanvar-iyun aylarında Azərbaycanın pərakəndə ticarət şəbəkəsində istehlakçılara 27 milyard 251,2 milyon manatlıq, o cümlədən 15 milyard 036,4 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 12 milyard 214,8 milyon manatlıq qeyri-ərzaq malları satılıb. Bu barədə Dövlət Statistika Komitəsinin hesabatında bildirilir.

■ Ağdamda 16 yaşlı qız qoşulub qaçıb. Rayonun Çəmənli kəndində yaşayan A.Ə. tanışı Əsəd Cavadzadəyə qoşulub, ailə qurmaq məqsədilə yaşadığı evi tərk edib. Faktla bağlı araşdırma aparılır.

■ Rusiyanın Tatarıstan Respublikasının Kama-Ustinski rayonunda yüngül gəzinti təyyarəsi qəzaya uğrayıb. Bu barədə Rusiya KİV-ləri məlumat yayıb. Hadisə nəticəsində 3 nəfər ölüb, 1 nəfər xəsarət alıb.



■ "Ukrayna hökuməti bu ölkəyə verdiyimiz "Storm Shadow" raketlərindən Rusiyaya zərbə endirə bilər". Bunu Böyük Britaniyanın Baş naziri Kir Starmer NATO-nun Vaşinqton sammiti çərçivəsində jurnalistlərə bildirib.

■ Azərbaycanda seçicilərin sayı açıqlanıb. Bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Ərazi-təşkilati məsələlər şöbəsinin müdiri Zeynal Nağdəliyev qeyd edib ki, seçici siyahılarının dəqiqləşdirilməsi zamanı aydın olub ki, 2024-cu il iyunun 28-nə olan məlumata əsasən, Azərbaycanda səsvermə hüququ olan 6 milyon 334 min 444 nəfər seçici var.

■ Taliban yüksəkrütbəli iranlı diplomatı və İranın Əfqanıstan üzrə xüsusi nümayəndəsinin müşaviri Əli Mucanini "arzuolunmaz şəxs" elan edib. Bu barədə Əfqanıstan mediası məlumat yayıb.



■ "Macarıstan Rusiya-Ukrayna münaqişəsindəki mövqeyinə görə, Avropa İttifaqı Şurasına sədrlikdən vaxtından əvvəl uzaqlaşdırıla bilər". Bu fikirlər "Politico" nəşrinin analitik məqaləsində dərc olunub. Yazıda həmçinin bildirilir ki, hazırda qurum daxilində bu məsələ məxfi formada müzakirə olunur.

■ Bu ilin ikinci rübündə Azərbaycanda ortalama gündəlik neft hasilatı 470 min barel səviyyəsində olub. Bu barədə EIA xəbər verir.

Hesabata əsasən, bu ilin birinci rübündə Azərbaycanda ortalama gündəlik neft hasilatı 470 min barel təşkil edib.

# 75 yaşlı NATO-nun Ukrayna dərdi

***Qərb dövlətlərinin əsas hərbi bloku olan NATO özünün 75 illik yubileyini qeyd edir. Budəfəki yubiley sammiti əvvəlkilərdən xeyli fərqlənir. Səbəb isə yenə də Ukraynadır. Faktiki olaraq Ukraynada Rusiya ilə hərbi qarşıdurmada olan alyans üzvlərini çətin müzakirələr gözləməkdədir. İki ildən artıq davam edən qanlı müharibə NATO-ya üzv ölkələrini də xeyli xərcə salır. Bununla belə, alyans, deyəsən, Ukraynadakı müharibənin hələlik davam etdirilməsində, bu məqsədlə Kiyevə daha çox hərbi yardımlar göstərilməsində maraqlıdır. Ən azından Vaşinqton sammiti ərəfəsində səsləndirilən bəyanatlar və ortaya qoyulan mövqe belə bir fon təəssüratı yaradır. İş ondadır ki, tək NATO üzvləri yox, onun tərəfdaşları da yardım kampaniyasında geri qalmamağa çalışırlar.***



## Dünya

### Kiyevə vəd edilən yardımlar

**Məsələn, Yeni Zelandiya Vaşinqtonda keçirilən NATO sammiti çərçivəsində Ukraynaya, təxminən, 9,8 milyon ABŞ dolları ayrıldığını elan edib, Ukraynanın Avstraliya və Yeni Zelandiyadakı səfiri Vasili Miroşniçenko bildirib.**

“Mən Ukraynaya növbəti yardım paketinə görə Yeni Zelandiya hökumətinə səmimi minnətdarlığımı bildirirəm”, - o, Facebook-da yazıb. Səfirin sözlərinə görə, pul Ukraynaya hərbi və humanitar yardım üçün istifadə olunacaq.

ABŞ və müttəfiqləri Ukraynanı yeni hava hücumundan müdafiə sistemləri ilə təmin edəcəklər. ABŞ, İtaliya, Hollandiya, Rumıniya və Ukraynanın birgə bəyanatına görə, Kiyev daha beş hava hücumundan müdafiə sistemi alacaq. Prezident Co Baydenin NATO sammitinin açılışında çıxışından sonra yayılan bəyanatda deyilir: “Biz Ukraynaya Rusiyanın davam edən təcavüzündən, o cümlədən Rusiyanın Ukrayna şəhərlərinə, mülki şəxslərə və kritik infrastruktura qəsdən hücumlarından müdafiə üçün əlavə hava hücumundan müdafiə vasitələri vermək niyyətindəyik”. Planlara uyğun olaraq, Kiyev ABŞ, Almaniya və Rumıniyadan dörd Patriot sistemi, Hollandiyadan və digər tərəfdaşlardan bu sistemlər üçün komponentlər, həmçinin İtaliyadan təhvil veriləcək bir SAMP/T sistemi alacaq. “Bu beş strateji hava hücumundan müdafiə sistemi Ukrayna şəhərlərini, mülki insanları və əsgərlərini qorumağa kömək edəcək”.



Bundan əvvəl Co Bayden Vaşinqtonda çıxışı zamanı bildirmişdi ki, qarşıdakı bir neçə ay ərzində Qərb müttəfiqləri Ukraynanı “onlarla əlavə taktiki hava hücumundan müdafiə sistemi” ilə təmin edəcəklər.

“Tarixin bu anı bizim kollektiv gücümüzü tələb edir. Putin Ukraynanı tamamilə özünə tabe etməkdən, Ukrayna demokratiyasına son qoymaqdan, Ukrayna mədəniyyətini məhv etməkdən və Ukraynanı yer üzündən silməkdən başqa bir şey istəmir. Və bilirsiniz ki, Putin Ukraynada dayanmayacaq. Ukrayna Putini dayandıra bilər və dayandıracaq”, - o, NATO sammitində deyib. Portuqaliya da 2025-ci ildə Ukraynaya 220 milyon avro məbləğində yardım edəcək. Baş nazir Luis Monteneqro NATO sammitinə gələrkən Vaşinqtonda jurnalistlərə bildirib.

“Bizim hesablamalarımıza görə, bu il Ukraynaya dəstəyimizin həcmi 220 milyon avrodan çox ola bilər və biz gələn il də eyni məbləği ayıracağıq”, - Monteneqro bildirib.

### Ukraynanın başqa istəkləri var

Ukraynanın isə NATO üzvlərindən başqa istəkləri var. Prezident Vladimir Zelenski Rusiya ərazisinə zərbələrə qoyulan məhdudiyyətləri aradan qaldırmağa çağırıb və bunun Kiyevə Rusiyanın Ukraynanın cənubundakı fəaliyyətini məhdudlaşdırmağa və Rusiya Silahlı Qüvvələrini qovmağa, həmçinin Ukrayna şəhərlərini Rusiyanın idarə olunan bombalarından və raket hücumlarından qorumağa kömək edəcəyini deyib.

Zelenski qeyd edib ki, may-iyun aylarında Ukrayna Silahlı Qüvvələri Rusiyanın Xarkova hücumunu dayandırıb. Ukrayna həmçinin iki ildən artıqdır ki, Xarkovu hər gün bombardman edən Rusiyanın raket buraxılış sistemlərini də məhv edib. Bu da Xarkovu raket hücumlarından müdafiə etdi, Ukrayna lideri vurğulayıb.

“Təsəvvür edin ki, bütün məhdudiyyətlər aradan qaldırıldıqda nə qədər çox şeyə nail ola bilərik. Əgər Amerika rəhbərliyi irəli addım atsa və onların bazalarında Rusiya hərbi təyyarələrini məhv etməyə icazə verərsə, biz indi də şəhərlərimizi Rusiyanın idarə olunan bombalarından qoruya bilərik. Biz ibu addımı gözləyirik”, - deyə Zelenski vurğulayıb.

O, vəd edilən F-16 qırıcılarının bu yay gələcəyinə ümid etdiyini bildirib. Onun sözlərinə görə, Kiyevə 128 belə təyyarə lazımdır. Bundan əlavə, Ukrayna prezidenti qeyd edib ki, bu təyyarələrlə bağlı problem onların sayı və gəliş tarixləri ilə bağlıdır. Dövlət başçısının sözlərinə görə, Rusiya Ukraynaya qarşı müharibədə 300-dən çox qırıcıdan istifadə edir, müttəfiqlər isə 10-20 təyyarə ilə bağlı qərar verib.

“Onlardan 50-si olsa belə, yenə çatmır. Onların üç yüz, bizdə isə 50. Biz özümüzü müdafiə edirik, 128 təyyarə lazımdır. Bu qədər təyyarəmiz olana qədər, onları səmada tuta bilməyəcəyik”, - deyə Zelenski yekunlaşdırıb.

### NATO-dakı çatışmazlıqlar

**75 yaşlı NATO Ukrayna müharibəsinə həm də hərbi təcrübə kimi yanaşır. Bunu qurum rəhbərliyinin son açıqlamalarından da görə bilərik.**

NATO Ukrayna ilə əməkdaşlığı genişləndirir, xüsusən də söhbət ölkənin silah və mərmi istehsal etmək imkanlarının artırılmasından gedir. Bunu NATO-nun Baş katibi Yens Stoltenberq Müdafiə Sənayesi Forumunda deyib.

Onun sözlərinə görə, Almaniyada və bir sıra digər Alyans ölkələrində layihələrə birgə investisiya yatırmaq, həmçinin Ukraynanın müstəqil silah və sursat istehsal etmək imkanlarını artırmaq məqsədi ilə komanda yaradılacaq.

“Ukrayna münaqişəsi alyansın tezliklə aradan qaldırmalı olduğu NATO qüvvələrinin hazırlığı və qarşılıqlı fəaliyyətində əhəmiyyətli boşluqları üzə çıxarıb”. Stoltenberq Vaşinqtonda deyib.

“Ukraynadakı müharibənin reallığı təkcə ehtiyatlarımızın və istehsal imkanlarımızın çox aşağı olduğunu nümayiş etdirmədi, həm də qüvvələrimizin qarşılıqlı fəaliyyətində böyük boşluqları nümayiş etdirdi. Ən məşhur nümunə birgə fəaliyyətə hazır olmalı olan Almaniya-Niderland briqadasıdır. Niderlandın malik olduğu standart 155 mm-lik sursat Almaniyanın haubitsalarında istifadə üçün uyğun olmadı. Bu, qüvvələrin uyğunlaşmasının tam əksidir”, - Stoltenberq bildirib.

### Alyans üzvləri nikbindir

**Müharibə iki ilini doldursa da, NATO hələ də Rusiyanın bu müharibədə məğlub olacağını düşünür.**

Qurumun adı açıqlamayan yüksəkrütbəli rəsmisi jurnalistlərə bildirib ki, müharibə zamanı Rusiya sursat istehsalını əhəmiyyətli dərəcədə artırmasına və ayda 30 minə qədər adamı orduya cəlb etməyə davam etməsinə baxmayaraq, Ukraynada böyük bir hücum təşkil etmək üçün hər ikisi çatışmır. Onun sözlərinə görə, Moskva cəbhədə vəziyyəti dəyişmək istəyirsə, canlı qüvvə və texnikada böyük itkiləri səfərbərlik və başqa ölkələrdən əlavə silahlar almaqla kompensasiya edilməlidir.

Əsgər çatışmazlığını təkcə NATO ekspertləri deyil, həm də rusiyalı müəlliflər qeyd edirlər. Orduda yarıəlil vəziyyətdə olan insanlar xidmət edir, rusiyayönlü teleqram kanallarından birinin müəllifi cəbhədə şikəstlərin nə üçün lazım olduğunu izah edib - aktiv döyüş əməliyyatları aparan bölmələrdə həddindən artıq itkilər. “İnsanların cəbhə xəttinə erkən qayıtması praktikası burada hansısa şəkildə silah saxlaya bilən hər kəs prinsipi əsasında yaranır. Tamamilə təbiidir ki, belə bir təcrübə heç bir şəkildə döyüş işinin səmərəliliyinin artırılmasına və şəxsi heyətin həvəsləndirilməsinə kömək etmir”, - deyə məlumatda bildirilir.

Siyasi kuluarlarda isə Ukraynanın NATO-ya üzvlüyü ilə bağlı ssenarilər müzakirə edilir. “Foreign Affairs”in yazdığına görə, bəziləri Kiyevin Almaniya və Norveç təcrübəsinə əsaslanaraq onun bloka üzvlüyünə nail olmağı təklif edir. Atəşkəs bağlamaq və yalnız Qərbi Ukraynanı NATO-ya daxil etməklə Rusiyanın sayıqlığını susdurmaq, sonra bir az gözlədikdən sonra “Berlin divarının yıxılması” əməliyyatını təkrarlamaq.

Göründüyü kimi, Qərb hələlik Ukraynadakı müharibəni sonlandırmaq fikrində deyil. Əksinə, bu hərbi qarşıdurmanı daha da uzatmaq, hətta gələn ilin planlarına da bəri bvaşdan hazırlıq aparılır. Əhalisi qırılan, şəhərləri dağılan, əsgərləri həlak olan isə Rusiya və Ukraynadır.

*✍ Vüsal Tağıbəyli*

# Neft hasilatının artım tempi gələn il cüzi yavaşıyacaq



**ABŞ-nin Energetika Nazirliyi yanında Energetika İnformasiyası Administrasiyası (EIA) 2024-2025-ci illər üçün maye karbohidrogenlərin gündəlik qlobal hasilatı üzrə proqnozunu açıqlayıb.**

EIA-nın aylıq hesabatına əsasən, bu il maye karbohidrogenlərin gündəlik qlobal istehsalının ortalama hesabla 102,43 mln. barel olacağı ehtimal edilir ki, bu da öncəki proqnozdan 0,14 mln. barel azdır.

Bundan başqa, EIA gələn il qlobal gündəlik neft hasilatının 104,6 mln. barel səviyyəsində olacağını ehtimal edir, bu da öncəki proqnoz göstəricidən 0,13 mln. barel azdır

Hesabata əsasən, 2023-cü ildə maye karbohidrogenlərin gündəlik istehsalı 101,79 mln. barel olub. Xatırladaq ki, 2022-ci ildə maye karbohidrogenlərin gündəlik qlobal istehsalı ortalama 99,99 mln. barel olub. 2021-ci ildə bu göstərici 95,7 mln. Barel, 2020-ci ildə - 93,84 mln. barel təşkil edib, 2019-cu ildə isə 100,61 mln. barelə bərabər idi.

# Azərbaycanda iqtisadi artım 4,3%-ə çatıb



**2024-cü ilin yanvar-iyun aylarında ölkədə 59 milyard 520,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3% çox ümumi daxili məhsul istehsal olunub. Bu barədə hafta.az Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.**

Məlumata görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz, qeyri neft-qaz sektorunda isə 6,9% artıb.

ÜDM istehsalının 38,5 faizi sənaye, 9,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,8 faizi tikinti, 5,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 19,5 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 5840,7 manata bərabər olub.

2024-cü ilin yanvar-iyun aylarında əsas kapitala 7 milyard 984,8 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,4% çox investisiya yönəldilib.

Məlumata görə, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 4,5 faiz, qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 12,6 faiz artmışdır. İstifadə olunmuş investisiyanın 4373,2 milyon manatı və ya 54,8 faizi məhsul istehsalı sahələrinə, 2747,3 milyon manatı (34,4 faizi) xidmət sahələrinə, 864,3 milyon manatı (10,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş investisiyaların 6452 milyon manatını və ya 80,8 faizini daxili investisiyalar təşkil edib. Əsas kapitala yönəldilmiş investisiyaların 5513,4 milyon manatı və ya 69 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

# Əhalinin yanacaq xərcləri artıb



**Bu ilin yanvar-iyun aylarında Azərbaycanda pərakəndə ticarət şəbəkəsində istehlakçılara 1 milyard 557,8 milyon manatlıq avtomobil benzini və dizel yanacağı satılıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 5,9 % çoxdur.**

Ötən yarım il ərzində alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 5,7 %-i avtomobil benzini və dizel yanacağının alınmasına sərf olunub.

Xatırladaq ki, bu ilin yanvar-iyun aylarında Azərbaycanda pərakəndə ticarət şəbəkəsində istehlakçılara 27 milyard 251,2 milyon manatlıq, o cümlədən 15 milyard 036,4 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 12 milyard 214,8 milyon manatlıq qeyri-ərzaq malları satılıb. 2023-cü ilin yanvar-iyun ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,4 %, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,9 %, qeyri-ərzaq malları üzrə 5,2 % artıb.

# Məktəblərdə dörd fənn yeni məzmunda tədris olunacaq



**2024-2025-ci tədris ilində ümumi təhsil müəssisələrinin müəyyən sinifləri üçün 67 adda dərslik yenidən hazırlanıb və ya təkmilləşdirilib. Bunu jurnalistlərə müsahibəsində Elm və Təhsil Nazirliyinin əməkdaşı Günel Seyidova deyib.**

O bildirib ki, bunlardan VI sinif üzrə coğrafiya, VII sinif üzrə isə kimya, fizika, biologiya dərslikləri Sinqapurun dərslik sahəsində mütəxəssislərinin köməyilə hazırlanıb.

Günel Seyidova həmin dərsliklərdə digər qabaqcıl təhsil institutlarının tətbiq etdiyi öyrənmə üsullarından istifadə olunduğunu söyləyib: “Sözügedən dərsliklərdə yeni yanaşmalardan, yeni pedaqoji texnologiyalardan geniş istifadə edilir. Bu dərsliklər 2023-2024-cü tədris ilində seçilmiş pilot siniflərdə sınaqdan uğurla keçib. Həmin dərsliklər əsasında tədris aparan müəllimlər üçün daha əvvəl müvafiq təlim keçirilib. Yeni dərsliklər şagirdlərin yaş səviyyəsinə uyğun hazırlanıb. Terminlər şagirdlərin yaş səviyyəsinə uyğun təqdim olunub. Əlavə nəzəri biliklərdən çox istifadə edilməyib, mövzular şagirdlərin yeni biliklərini necə istifadə etməsini, bacarıqlarının formalaşmasını hədəfləyib. Hazırda V sinif riyaziyyat və Azərbaycan dili dərslikləri də yenilənib. V sinif Azərbaycan tarixi, IX sinif Azərbaycan tarixi, IX sinif ümumi tarix dərslikləri yenilənib. V sinif ingilis dili dərsliyi Kembric Universitetinin mütəxəssisləri tərəfindən hazırlanıb. Əlavə olaraq bu dərsliklər ikihissəli hazırlanıb. Bu şagirdlərin çantalarının yüngül olması üçün müəyyən edilib”.

# "O qatillə təkbətək söhbət etdim..."

***Daxili İşlər Nazirliyi Şəxsi Heyətlə İş İdarəsinin sabiq rəisi, istefada olan polkovnik Mehman Mehmanovla hafta.az üçün budəfəki söhbətimiz, əsasən, bu günlərdə Bakının müxtəlif məkanlarında keçirdikləri əməliyyatlar zamanı 4 polis əməkdaşının qətlə yetirilməsi ilə nəticələnmiş olaylarla bağlı oldu. Həmsöhbətimiz malik olduğu təcrübəyə əsaslanaraq cəmiyyətdə polis-vətəndaş münasibətlərini normallaşdırmağın yollarından da bəhs etdi...***

## Müsahib

***- Mehman müəllim, Bakının müxtəlif məkanlarında keçirdikləri əməliyyatlar zamanı 4 polis əməkdaşının qətlə yetirilməsi ilə nəticələnmiş olaylarla bağlı fikirləriniz oxucularımız üçün maraqlı olardı...***

- Gənc həmkarlarım olan 4 polis əməkdaşının xidməti vəzifələrini yerinə yetirən zaman qətlə yetirilməsi məni ürəkdən sarsıtdı. Bu ağır hadisə özümün cavan yaşlarımda bir polis kimi fəaliyyətimin müəyyən ibrətamiz məqamlarını xatırlatdı...

Yadımdadır, keçmiş sovet dövründə SSRİ Daxili İşlər Nazirliyinin "Sovetskaya militsiya" jurnalında dərc olunmuş "Ağıl riskdən üstündür" məqaləsində sovet respublikalarında polis qətlləri ətraflı şərh olunur və bu cür halların qarşısının alınması yolları göstərilirdi...

1993-cü il idi... 38 yaşım var idi. Xidmətimi Sabunçu Rayon Polis İdarəsində davam etdirirdim. Bir gün əməliyyat növbətçisi idim. Ağır ölüm hadisəsi törətmiş bir qatili otağıma gətirmək barədə növbətçi köməkçisinə tapşırıq verdim. Gecə yarıdan xeyli keçmişdi. Dustağı təhvil verən köməkçiyə getməyi əmr etdim. Polis əməkdaşı tərəddüdlə üzümə baxa-baxa otağı tərk etdi. İkimiz qaldıq: qatil və mən... Xidməti tabel silahım yanımda olsa da, xeyli sonradan anladım ki, bu, sırf bir polis əməkdaşı kimi tərəfimdən böyük bir ehtiyatsızlıq oldu. Hətta masanın üstündə qələmi yonmaq üçün kiçik bıçaq da var idi. Bir sözlə, bu söhbət gözlənilmədən ağır faciə ilə nəticələnə bilərdi.

Hər şeyə rəğmən dustaqla söhbətimiz çox səmimi keçirdi. Siqaret təklif etməyim, mərhəmətli davranışım onu ürəkləndirirdi...

***- Üzr istəyirəm, burada bir sual meydana çıxır; həmin qatil sizin yanınıza gətiriləndə qandallı idi, yoxsa?***

- Doğrusu, hadisənin üzərindən 30 ildən çox vaxt keçdiyindən o detal dəqiq yadımda deyil. Əlləri qandallı olsa belə, hər hansı çevik şəxs qarşısındakı insana xəsarət yetirə bilər.

***- Lütfən, söhbətinizə davam edin?***

- Qarşımda əyləşən qatil onu bu qətlə aparan səbəblər və hadisəni necə törətməsi haqqında danışmağa başladı:

"Rəis, qətlə yetirdiyim adam rəhmətlik qardaşımı öldürmüşdü. Onlar yaxın dost idilər. Hadisə Rusiyada baş vermişdi. Qardaşımın günahının bilinməməsi və qatilin azadlıqda gəzməsi ürəyimə od salır, heysiyyatıma toxunurdu. Qürurum sınmışdı. Qoca ata-anam isə dönə-dönə mənə artıq-əskik hərəkət etməməyi, qardaşımı öldürən şəxsi Allaha tapşırmağımı təkid edirdilər. Lakin yenə də bir yerdə qərar tuta bilmirdim. Bir gün eşitdim ki, qardaşımın qatili Bakıya gəlib və özünə toy edir. Gecə qəbirdə olan qardaşım yuxuma girdi Dəli kimi olmuşdum. "Parabellum" tapançam vardı, amma cəmi 2 gülləsi qalmışdı...

Toy axşamı tapançamı götürüb hasardan aşıb toyxanaya girdim. Baş qarışıq olduğundan heç kəs məndən şübhələnmədi. Yavaş-yavaş bəylə-gəlinin masasına yaxınlaşdım. Arzum bu idi ki, gülləm boşa çıxmasın və gəlinə dəyməsin. Bir-iki addımlıqdan atəş açıb bəyin düz, alnından vurdum. O biri gülləni də havaya atıb hasara doğru yüyürdüm. İkinci atəşdən də çaşqınlıq yarandığından, heç kəs arxamca gəlməyə cəsarət etmədi. Hasarı atlayıb qəbiristanlığa gəldim. Qardaşımın məzarını qucaqlayıb doyunca ağladım. "Allah hər ikimizə rəhmət eləsin", - dedim...". Həmsöhbətim həmin qətl gecəsi Rusiyaya qaçmış və bir müddət sonra Bakıya gələrkən polis əməkdaşları tərəfindən yaxalanmışdı...

***- Maraqlıdır, həmin söhbətindən sonra bir insan kimi o dustağa qarşı qəlbinizdə hansı duyğular oyandı?***

> *"Biz də bir cəmiyyət olaraq özümüz son olaylardan ciddi nəticə çıxarmalı və həm polisin vətəndaşa, həm də vətəndaşın polisə qarşı münasibətlərinin necə olması haqda düşünməliyik*

- Açığı, bu hekayəti dinlədikdən sonra cani olsa da, qəlbimdə ona qarşı bir mərhəmət hissi baş qaldırdı. Ancaq bütün hallarda o, insan öldürmüşdü və son hökmü məhkəmə verməli idi...

Həmin ibrətamiz olayla bağlı yazım o vaxtın məşhur mətbu orqanlarından biri olan, Babək Hüseynoğlunun baş redaktorluq etdiyi "Aydınlıq" qəzetində dərc olundu və oxucular tərəfindən maraqla qarşılandı...

Bir gün bəhs etdiymiz qatilin yaşadığı ərazidə xidmət edən sahə inspektoru polis idarəsinə gəlib dedi ki, qarşı tərəf onun ata-anasından intiqam almaq niyyətində imiş, lakin bu yazını oxuduqdan və valideynlərin "Onu Allaha tapşır, işin olmasın" söyləməsini bildikdən sonra qətlə yetirilmiş gəncin qohumları qan tökmək fikrindən daşınıblar...

***- Bəs həmin şəxsin taleyi, neçə il cəzaya məhkum olunması haqqında sonradan məlumatınız oldumu?***

***- Az sonra iş yerim dəyişildiyindən o adamın sonrakı taleyindən xəbərsiz qaldım...***

Amma nəql etdiyim bu olay və son günlər cinayətdə şübhəli bilinən və ya axtarışda olan şəxsə qarşı əməliyyat zamanı cavan polis əməkdaşlarının qətlə yetirilməsi hadisələrini yan-yana qoyub təhlil edəndə yaranan ilk sual bu olur:

"Bəs əslində polis qatillə, residivistlə, yaxud cinayətdə şübhəli bilinən şəxslə necə davranmalıdır?".

***- Siz bu suala necə cavab verərdiniz?***



**Mehman Mehmanov,**
DİN-in Şəxsi Heyətlə İş İdarəsinin sabiq rəisi, istefada olan polkovnik

- Mənim təsvir etdiyim nümunədə başqa bir adamı qətlə yetirmiş bir şəxslə insani, səmimi bir davranış, onun öz dərdini bölüşməsinə rahat şərait yaratmaq, amma eyni zamanda, öncə dediyim kimi, bir polis əməkdaşı olaraq ehtiyatsızlıq elementləri üzə çıxır... Polislərin qətli ilə bağlı olaylarda isə artıq fədakarlıq və peşəkarlıq göstərmələrinə rəğmən müəyyən qədər ehtiyatsızlıq və ya digər səbəblərdən polis əməkdaşlarının öldürülməsi faktları var... Özü də etiraf etmək lazımdır ki, son hadisələrə Azərbaycan cəmiyyətində heç də tam birmənalı reaksiya olmadı. Bəzi vətəndaşlar hətta polislərin qətlinə haqq qazandırdı... Və kimlərsə bundan yararlanaraq ya sadəcə öz düşüncəsi ilə, ya da hansısa qüvvələrin təsiri altında məqsədyönlü şəkildə, ümumiyyətlə, Azərbaycan polisini tam qara rəngdə təqdim etməyə, cəmiyyətlə polis arasında dərin bir qarşıdurma yaratmağa çalışır. Belə olan halda dərindən düşünməliyik: bəzi insanlarımızda polislərimizə qarşı belə aqressivlik haradan qaynaqlanır?

Bu sual bizi "Əslində, polis qatillə, yaxud cinayətdə şübhəli bilinən şəxslə, residivistlə və s. necə davranmalıdır?" sualına tərəfsiz, balanslaşdırılmış bir cavab hazırlamağa vadar edir. Əlbəttə, bəhs edilən hadisələrdən sonra Daxili İşlər Nazirliyinin rəhbərliyi bütün əməkdaşlara adi vətəndaşlarla, cinayətdə şübhəli bilinənlərlə, axtarışda olanlarla, residivistlərlə və s. mövcud qanunlar çərçivəsində davranmaqla yanaşı, ehtiyatlı olmaq, müvafiq təlimatlara ciddi əməl etmək barədə göstəriş və tövsiyələrini verib. Lakin biz də bir cəmiyyət olaraq özümüz son olaylardan ciddi nəticə çıxarmalı və həm polisin vətəndaşa, həm də vətəndaşın polisə qarşı münasibətlərinin necə olması haqda düşünməliyik...

***- Orqanlarda çalışdığınız istər sovet dövrü, istərsə də müstəqillik illərində hüquq-mühafizə əməkdaşlarının ölümü ilə nəticələnmiş oxşar hadisələrlə rastlaşmısınızmı?***

- İş başında olduğum illər ərzində həm müxbir, həm də orqan əməkdaşı kimi bir çox əməliyyatların iştirakçısı və şahidi olmuşam. Hətta Birinci Qarabağ müharibəsində DİN mətbu orqanının müxbiri kimi milis və polislərimizin Qarabağda erməni yaraqlılarına qarşı döyüş əməliyyatlarında da iştirak etmişəm. Bilavasitə özümün iştirak etdiyim əməliyyatlarda polis əməkdaşlarının qətli olayları, elə yaxşı ki, baş verməyib. Təbii ki, elə əməliyyatlar da olub ki, onların detallarını açıqlaya bilmirəm. Ancaq son 20-30 ildə Azərbaycan polisinin qəhrəmancasına həlak olmasıyla bağlı bir hadisəni xatırlayıram. Rəhmətlik, gözəl sənətkarımız, Xalq artisti Həsənağa Turabovun oğlu, polis kapitanı Daşqın Turabovun xidməti vəzifəsini yerinə yetirərkən həlak olmasını... O, Siyəzən polis şöbəsinin əməliyyat müvəkkili kimi çalışıb. Səhv etmirəmsə, 1997-ci ildə Siyəzən şəhər sakinlərinin birində avtomat olması barədə əməliyyat məlumatı əsasında polis təcili əməliyyat keçirməli olub. Əməliyyat qruplarından birinin tərkibində olan Daşqın Turabov hamıdan öncə irəli atılaraq, əvvəldən tanıdığı həmin şəxsi yola gətirəcəyini söyləyib, hətta "Filankəs, mənəm, Daşqın", - deyə çağırıb. Amma gözü qızmış cinayətkar əlindəki avtomat silahla ardıcıl atəş açmağa başlayıb və atdığı güllələrin çoxu Daşqına dəyib, o, xəstəxanaya çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb. Həmin qatil polislər tərəfindən yaxalanıb və uzun müddət həbsdə yatıb. Bu yaxınlarda onun internet kanallarının birinə müsahibəsinə rast gəldim. Deyir ki, mən artıq avtomatla atəş açmağa başlayandan sonra tanıdım ki, adımı çağıran səsin sahibi Daşqındır və çox peşman oldum. Onu əvvəlcədən tanısaydım, könüllü təslim olardım... Yadımdadır ki, o zaman polis kapitanı Daşqın Turabov mərhum Prezident Heydər Əliyevin sərəncamı ilə ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif olundu, Siyəzən rayon polis şöbəsinin həyətində büstü qoyuldu... Həmin hadisədə də rəhmətlik nəhəng kinoaktyorumuzun oğlu bir polis əməkdaşı kimi təqib edilən şəxsin onu tanımasına arxayın olaraq qismən ehtiyatsızlıq etmişdi. Buradan aydın olur ki heç kəs hansısa cinayətkarın hücumundan sığorta olunmayıb...

Və ümumiyyətlə, bəzən vətəndaşla kobud davranan polislərə rast gəlinsə də, unutmayaq ki, istər 1988-ci ildən bəri torpaqlarımızın keşiyində, istər o illərdə Bakıda və digər şəhərlərimizdə erməni xüsusi xidmət orqanlarının törətdiyi terror hadisələrində, istərsə də ölkədə mütəmadi baş verən ən ekstremal olaylarda, hansısa texnogen, təbii fəlakətlər, yanğınlar, daşqınlar, metroda eskalatorun qırılması, yüksək mərtəbəli binalardakı yanğınlar, iri nəqliyyat qəzaları və s. zamanı vətəndaşların, bizlərin dadına çatan da öncə polislər olur. Ona görə də polislərimizin işinə, əməyinə obyektiv qiymət vermək gərəkdir. Əgər polis əməkdaşı doğrudan da hər hansı qatili, cinayətkarı zərərsizləşdirən zaman həyatını riskə atmağa məcbur olub həlak olursa, təbii ki, ona qəhrəman deməliyik. Bu, bütün sivil ölkələrdə, o cümlədən qardaş Türkiyədə də belədir. Şəhid, yaxud qazi hərbçilərə, onların ailələrinə necə hörmət bəslənilirsə, adları uca tutulursa, eyni münasibət də asayişimizin keşiyində duran zamanı həyatını qurban verən polislərə də göstərilməlidir...

***- Bəzi deputatlar da təklif edir ki, qanuni əməliyyatlar zamanı polisə silah tətbiq edənlərə qarşı cəzalar daha da sərtləşdirilməlidir. Bu təklifə necə yanaşırsınız?***

- Uzun illər polis orqanlarında, yüksək vəzifələrdə çalışmış biri olaraq düşünürəm ki, yalnız bununla məsələ bitirmi? Burada qanunvericiliyə ciddi əməl etməklə yanaşı, paralel polis-vətəndaş, vətəndaş-polis, polis-qatil və s. münasibətlərində insani aspektləri də nəzərə almaq və cəmiyyətdə bu istiqamətdə maarifləndirmə işləri aparmaq lazımdır...

Cavan polis zabiti Mehman Mehmanovun timsalında gördük ki, hətta qatillə də, həm qanun çərçivəsində, həm də insan kimi davranmaq olar. Ancaq həmin qatildə insanlıq duyğuları tamamilə ölmüş ola bilərdi. Odur ki, polis əməkdaşı belə halda ehtiyatı əldən verməməli, ən azı qatillə təkbaşına söhbət etməməli idi... Bir sözlə, belə nəticəyə gəlirik ki, polis hətta cinayətkarla da, qatillə də qanun çərçivəsində davranmalı, fəqət heç vaxt ehtiyatı əldən verməməlidir...

***- Polisin küçədə, yaxud şəxsi mənzilində qanuni şəkildə, müvafiq sanksiyalar olmaqla keçirdiyi hər hansı əməliyyatla üz-üzə gələ bilən vətəndaşlara sözünüz nədir?***

- Təbii ki, hörmətli vətəndaşlar da polisin qanuni tələblərinə tabe olmalı, əməliyyat şəraitinə uyğun göstərişləri səbirlə yerinə yetirməlidir. Yəni kimliyindən asılı olmayaraq hər kəs qanunlara tabe olmalıdır. Belə olarsa, ölkəmizdə heç bir ciddi nataraz hadisə baş verməz...

Bir sözlə, hesab edirəm, cəmiyyətdə polis-vətəndaş münasibətlərini normallaşdırmaq üçün yeganə yol, qanunvericiliyin tələbləri ilə insani duyğuları heç birinə xələl gətirmədən, heç birini tapdamadan tarazlaşdırmaqdadır... Biz hər şeydən əvvəl insanıq, Azərbaycan vətəndaşıyıq, Allah bəndəsiyik... Allah şəhid hərbçilərimizə də, polislərimizə də rəhmət eləsin, xalqımızı, müstəqil dövlətimizi, dövlətçiliyimizi qorusun!..

***✍ Sultan Laçın***



**■ Azərbaycanda dairə seçki komissiyaları və məntəqə seçki komissiyaları üçün yaradılan şərait yüksək səviyyədədir.**

Bu sözləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov dairə seçki komissiyalarının sədrləri üçün keçirilən müşavirədə deyib. MSK sədri əlavə edib ki, belə bir şəraitdə Seçki Məcəlləsinin tələblərini pozanlar olarsa, cəzalandırılacaq. Azərbaycan yeganə ölkədir ki, seçkilərdə media subyektləri heç bir qurumdan icazə almırlar və onlar seçkilərin işıqlandırılması prosesinə sərbəst şəkildə qoşulurlar. Məzahir Pənahov deyib. MSK sədri bildirib ki, parlament seçkilərinin keçirilməsi üçün ölkəmizdə 125 seçki dairəsi üzrə 6400-dən artıq seçki məntəqəsində şərait yaradılır.



**■ Bakı Şəhər İcra Hakimiyyətində paytaxt icra hakimiyyətlərinin və şəhərin təsərrüfat xidmətləri rəhbərlərinin iştirakı ilə geniş müşavirə keçirilib.**

Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat Xidmətindən verilən məlumata görə, müşavirədə bir sıra məsələlər, o cümlədən son vaxtlarda paytaxtda aparılan genişmiqyaslı təmir-abadlıq işləri, sanitar təmizlik məsələləri müzakirə edilib, işlərin sürətləndirilməsi və müəyyən edilən vaxtda keyfiyyətlə başa çatdırılması ilə bağlı müvafiq tapşırıqlar verilib. Rayonlarda görülən təmir işlərinin müzakirəsi zamanı ərazidə yerləşən qeyri-yaşayış obyektlərinin fasadlarının və mövcud hasarların vəziyyətinin qeyri-qənaətbəxş olması ilə əlaqədar Xətai və Yasamal RİH başçılarına ciddi xəbərdarlıq edilib və qısa müddət ərzində bu sahədə dönüş yaradılması ilə bağlı müvafiq tapşırıqlar verilib.



**■ Seçkilərlə bağlı prokurorluq orqanların əsas vəzifəsi daxil olmuş müraciətlərə baxılması ilə bağlıdır. Bunu Baş prokurorun birinci müavini Elçin Məmmədov Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyalarının sədrləri üçün keçirilən müşavirədə deyib. Elçin Məmmədov bildirib ki, qanunda seçkilərin keçirilməsi prosesi ilə bağlı müraciətlərə baxılması üçün çox qısa zaman müəyyən edilib:**

"Səsvermə günü olan müraciətlər dərhal baxılmalıdır. Eyni zamanda Seçki Məcəlləsinin 11-ci maddəsində də seçkilərin gedişinə müdaxilənin qadağan edilməsi ilə bağlı müddəa öz əksini tapıb. Bunun üçün cinayət məsuliyyəti nəzərdə tutulub. Milli Məclisə seçkilərin keçirilməsi ilə əlaqədar seçki qanunvericiliyinin pozulmasına yol vermiş şəxslərin qanunauyğun cəzalandırılması ilə bağlı prokurorluq orqanları tərəfindən bütün addımlar atılacaq".



**■ Həddindən artıq isti havalar son on il ərzində Kaliforniyada 460 nəfərin ölümünə səbəb olub. İstilik dalğası nəticəsində ştat 7,7 milyard dollar dəyərində iqtisadi itkilərə məruz qalıb.**

Kaliforniya Sığorta Departamenti bu yaxınlarda 2013 və 2022-ci illəri araşdıraraq, ştatdakı maliyyə xərclərini hesablayıb. "Həddindən artıq istilərin Kaliforniya əhalisinə, infrastrukturuna və iqtisadiyyatına təsiri" başlıqlı hesabata görə, ən pis isti hava şəraiti 2022-ci ildə baş verib. Həmin ildə istilər 200 nəfərin həyatına son qoyub və 2,2 milyard dollar iqtisadi itkiyə səbəb olub. Təkcə əmək məhsuldarlığı 7,7 milyondan 210 milyon dollara qədər itkilərə məruz qalıb. Xüsusilə 2022-ci ildə istilik dalğası zamanı elektrik enerjisinin kəsilməsi 230 milyon dollar iqtisadi ziyana səbəb olub.



**■ 2024-cü ilin sentyabrın 1-də keçiriləcək parlament seçkiləri ölkəmizin həyatında ən böyük ikinci tədbirdir. Bunu Azərbaycan Prezidentinin köməkçisi - Ərazi-təşkilati məsələlər şöbəsinin müdiri Zeynal Nağdəliyev deyib.**

Zeynal Nağdəliyev Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi prosesində yerli icra orqanlarının vəzifələri və onların seçki komissiyaları ilə qarşılıqlı fəaliyyətindən bəhs edib: "Prezident İlham Əliyevin qətiyyəti sayəsində ölkəmizin bütün ərazilərində suverenlik bərpa edilib. Azad olunmuş ərazilərə 6 rayon üzrə 7762 nəfər üzvü olan ailələr köçürülüb. Bu dəfə isə orada seçicilərin daha yaxşı səs verə bilməsi üçün daha 8 seçki məntəqəsi yaradılıb. DSK və məntəqə seçki komissiyalarına normal iş şəraiti yaradılmalıdır.



**■ Koreya Respublikası Rumıniyaya rekord miqdarda - təqribən, 1,3 trilyon von (939 milyon dollar) dəyərində silah satışı üzrə müqavilə imzalayıb. Müqaviləyə əsasən Cənubi Koreyanın müdafiə nəhəngi "Hanwha Aerospace" Rumıniyaya silah və sursat ixrac edəcək.**

Onların arasında 54 ədəd özüyeriyən K-9 haubitsası və döyüş sursatı daşımaq üçün nəzərdə tutulan 36 ədəd zirehli maşın var. Bu, Rumıniyanın son yeddi ildə sifariş verdiyi ən böyük silah partiyasıdır. Seul, həmçinin Rumıniyanın Koreya Respublikası ilə silah tədarükü sahəsində əməkdaşlığı davam etdirəcəyini və gələcəkdə "Redback" piyadaların döyüş maşını və K-2 tankına maraq göstərəcəyini gözləyir. Agentliyin məlumatına görə, Cənubi Koreya artıq bir neçə ölkəyə, o cümlədən Avstraliya, Misir, Hindistan, Norveç, Polşa, Türkiyə, Finlandiya və Estoniyaya özüyeriyən haubitsalar ixrac edib.

# Mənzil sahibləri necə aldadılırlar?

**_Son zamanlar paytaxt Bakıda yeni dələduzluq növü peyda olub. Belə ki, paytaxtda bir neçə sakin başına gələnlərin şokunu yaşayır. Evlərini rəsmi müqavilə ilə əmlakçılara uzunmüddətli kirayə verdikləri halda bir neçə ay sonra mülklərinin onlardan xəbərsiz satıldığını öyrəniblər. Mülkləri naməlum şəraitdə əllərindən çıxan sakinlər araşdırma zamanı müəyyən ediblər ki, bu cür qanunsuz işlərin həyata keçirilməsi ilə məşğul olan şəbəkə mövcud imiş. Şəbəkənin ortada olan üzvləri isə əsasən əmlakçılardır._**



## əmlak

Bu şəxslər müxtəlif əmlak satışı saytlarından əldə etdikləri nömrələr vasitəsilə birbaşa mülk sahibləri ilə əlaqəyə girərək elanda göstərilən evləri uzun müddətə kirayəyə götürmək istədiklərini bildiriblər.

Qeyd edək ki, qanunsuz satılan evlərin əksəriyyəti Rusiya Federasiyasının Tümen vilayətində ayrı-ayrı notariuslar tərəfindən verilən baş etibarnamələrlə satılıb. Həmin saxta etibarnamələr hansısa şəkildə Rusiya Federasiyasının Notarial Xidmətinin elektron qeydiyyat sistemində də yerləşdirilib. Bakıda alqı-satqı zamanı da sistemdə bu sənədlər göründüyündən yerli notariat kontorları heç bir şübhə duymadan sövdələşməni həyata keçiriblər.

Bir müddət sonra bir neçə sakin evinin satıldığından duyuq düşərək alqı-satqını həyata keçirən notariusa üz tutub. Bundan sonra notarius da öz növbəsində baş etibarnamənin alındığı Tümen vilayətindəki notariat kontoruna sorğu göndərib və sənədin saxta olduğu müəyyənləşib. Maraqlı olan odur ki, Rusiya Federasiyasının notariat sistemində görünən baş etibarnamənin saxta olduğu dəqiqləşdirildikdən sonra da həmin ev iki dəfə ayrı-ayrı şəxslərə satılıb.

Bəs, görəsən, bu necə baş verir? Mənzillərini kirayə verənlər belə situasiya ilə qarşılaşmamaq üçün hansı addımlar atmalıdırlar?

■ **Məsələ ilə bağlı rieltor Mülkədar Rüstəmov bizimlə söhbətində bildirib ki, vətəndaşlar adətən rəsmi müqavilə bağlamadan mənzillərini kirayə verərkən aldadılırlar.** Onun sözlərinə görə, bu dələduzluq əməli ilə xüsusi şəbəkə məşğul olur: "Vətəndaşlara tövsiyyə edirəm ki, mənzillərini kirayə verərkən mütləq notarial qaydada müqavilə bağlasınlar. Eyni zamanda, heç kimə etibarnamə verməsinlər. Çünki bəzi şəxslər onlara verilən etibarnamədən sui-istifadə edirlər".

Onun fikrincə, əmlak sektorunda bu cür neqativ halların baş verməsi qanunvericilik bazasının olmaması ilə bağlıdır: "Azərbaycanda "Rieltor fəaliyyəti haqqında" qanununun qəbul olunması vacibdir. Yəni, bu sahədə çalışan insanların peşələrinə konkret olaraq ad verilməli, həmin adla da bu sahəni qəbul etmək lazımdır. Əmlakçı işləmək tək alıcı ilə satıcını birləşdirərək pul qazanmaqdan ibarət olmamalıdır. Bu sahədə çalışan insanlar həm öz sahəsinin analitiki olmalı, həm qiymətləndirməni bacarmalı, həm sənədləşmə işini və s. bilməlidir. Demək olar ki, bu günümüzdə bu sahədən anlayışı olan və olmayan təhsilli- təhsilsiz və s. insanlar bu sahədə çalışırlar. Məhz bu səbəbdən Azərbaycanın əmlak bazarı tamamilə çöküb, cəmiyyətimizin bu sahədə fəaliyyət göstərən şəxslərə inamı azalıb. Bu sahəyə inamı artırmaq, əmlak bazarında canlanma yaratmaq üçün "Rieltor fəaliyyəti haqqında" qanununun qəbulu mütləqdir"

■ **Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev də hesab edir ki, bu kimi hallarla üzləşənlər dələduzların qurbanıdır: "Bunları törədənlər bir qrup xüsusi cinayətkar dəstələrdir.**

Onlar mənzili uzun müddətlik kirayə götürür və əmlak sahibi haqqında hərtərəfli araşdırma aparıb, məlumat əldə edirlər. Həmin şəxslə rəsmi müqavilə bağlanan zaman rəsmi müqavilədə ev sahibinin də şəxsiyyət vəsiqəsi qeyd edildiyinə görə, dələduzlar həmin məlumatlarla Rusiyanın hər hansı şəhərindəki öz adamlarına notarial qaydada etibarnamə alırlar, etibarnamənin kökü saxta olsa da, rəsmi portala işlənildiyinə görə aldadıcı ola bilir. Həmin etibarnamə ilə Azərbaycana qayıdıb, ya mənzili etibarnamə ilə satırlar, ya da öz adamlarından birinin adına keçirib, sonra satışa çıxarırlar".

Onun sözlərinə görə, qurban olaraq adətən subay və tənha adamlar seçilir: "Əsasən həmin mənzillərdə qeydiyyatda başqa adamlar olmur. Çünki evli adamların əmlakını satmaq üçün onun həyat yoldaşının imzasını da əldə eləmək lazım gəlir. Ona görə də insanlar tələyə düşməmək üçün mənzil alanda mütləq vəkil məsləhəti ilə almalı, kirayə verdikləri mənzillərə isə tez- tez baş çəkməlidilər".

"

*Əmlak sektorunda bu cür neqativ halların baş verməsi qanunvericilik bazasının olmaması ilə bağlıdır*

*Qurban olaraq, adətən, subay və tənha adamlar seçilir*

✍ **_Sevinc_**

# Ermənilər indi də "Qarabağ" əsərimizi oğurladılar

**_Mədəniyyət Nazirliyi və Əqli Mülkiyyət Agentliyi Azərbaycan bəstəkarı Bəhram Nəsibovun "Qarabağ" adlı əsərinin musiqisinin qanunsuz mənimsənilməsi və müəlliflik hüququnun digər şəkildə pozulması ilə bağlı birgə bəyanat verib. Bəyanatda deyilir: Azərbaycana məxsus müəllif əsərlərinin və folklorun ermənilər tərəfindən oğurlanaraq mənimsənilməsi halları davam etməkdədir._**



Növbəti belə hal sözləri və musiqisi tanınmış Azərbaycan bəstəkarı Bəhram Nəsibova məxsus olan "Qarabağ" ("Anadır arzulara hər zaman Qarabağ") adlı əsərin Gor Yepremyan tərəfindən sözləri dəyişdirilməklə ifa edilərək "Sirun jan" adı altında, videonun təsvirində "Armenian Folk", yəni "erməni xalq mahnısı" qeydi ilə "Youtube" platformasında yerləşdirilməsidir. Üzeyir Hacıbəyovun əsərlərinin ermənilər tərəfindən mənimsənilməsi ilə əlaqədar olduğu kimi, bu plagiat da haqlı olaraq Azərbaycan cəmiyyətində geniş rezonans doğurmuşdur və Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi 9 iyul 2024-cü il tarixində buna dair geniş şərh vermişdir.

Qeyd edilənlərlə bağlı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi aşağıdakıları bəyan edir:

1. Sözləri və musiqisi Azərbaycan bəstəkarı Bəhram Nəsibova məxsus olan "Qarabağ" əsəri ("Əsər") 20-ci əsrdə yaradılmış və ilk dəfə Azərbaycanın xalq artisti Arif Babayev tərəfindən 1972-ci ildə ifa edilmişdir.

2. Əsər 2 iyun 1972-ci il tarixində SSRİ qanunvericiliyinə uyğun olaraq Əqli Mülkiyyət Agentliyinin hüquqi sələfi olan Ümumittifaq Müəllif Hüquqları Agentliyinin Azərbaycan Şöbəsində qeydə alınmışdır. 1998-ci ildə dünyasını dəyişmiş Bəhram Nəsibovun vərəsələri onun mahnı janrında yazılmış bir çox əsərlərini, o cümlədən Əsəri 14 iyul 2004-cü il tarixində Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyində (Əqli Mülkiyyət Agentliyinin hüquqi sələfi) dövlət qeydiyyatından keçirmiş, onlara Agentlik tərəfindən Əsərin qeydiyyatı haqqında 662 nömrəli şəhadətnamə verilmişdir.

3. Əsər Bəhram Nəsibovun ən məşhur mahnılarından biridir, dəfələrlə Azərbaycan, Türkiyə, Özbəkistan və digər ölkələrdə kütləvi ifa edilmiş, həmin kütləvi ifaların çoxlu sayda video və audio yazıları mövcuddur.

4. Əsərin Azərbaycanda dövlət qeydiyyatı sənədləri, müxtəlif daşıyıcılarda olan nüsxələri və kütləvi ifaları zamanı Bəhram Nəsibovun müəllifliyinə aid əsər kimi tanınması Bəhram Nəsibovun Əsərin yeganə müəllifi olmasının sübutudur.

5. Əsərdən istifadə Bəhram Nəsibovun vərəsələrinin razılığı ilə və həmin razılıqda qeyd edilən həcmdə, onun müəllifliyi qeyd edilməklə mümkündür. "Sirun jan" adlı "Youtube" videosunun təsviri hissəsindən və məzmunundan göründüyü kimi, Bəhram Nəsibov müəllif kimi qeyd edilməyib, əksinə, qanunsuz ifa edilmiş Əsər "erməni xalq mahnısı" olaraq "Youtube" platformasına yerləşdirilmişdir.

6. Əsərin qeydiyyat sənədlərindən və kütləvi ifa tarixçəsindən çıxış edərək, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi bu halı birmənalı olaraq Əsərin tərkib hissəsi olan musiqinin plagiatı kimi qiymətləndirir.

7. Plagiatın əlavə sübutu olaraq həm Əsər (bir neçə fərqli ifada), həm "Sirun jan" videosu oxşarlığın müəyyən edilməsi məqsədilə Əqli Mülkiyyət Agentliyinin ekspertlərinə təqdim edilmişdir. Ekspert qismində Azərbaycan Respublikasının xalq artistləri, bəstəkarlar Faiq Sücəddinov və Eldar Mansurov çıxış etmiş və apardıqları araşdırmanın nəticəsi olaraq müəyyən etmişlər ki, erməni ifaçının səsləndirdiyi "Sirun jan" adlı mahnının musiqisi Bəhram Nəsibovun muğamın çahargah ladında yazdığı "Qarabağ" əsərinin musiqisi ilə tam üst-üstə düşür, eynidir. Bundan əlavə, əsərin orijinal "Qarabağ" adı "Sirun jan" adına, "Anadır arzulara hər zaman Qarabağ" cümləri də daxil olan Azərbaycan dilindəki mətni isə erməni dilində yeni mətnə dəyişdirilərək, Əsər təhrif edilmişdir.

8. Beləliklə, Əsər təhrif edilməyə məruz qalmış, Əsərin tərkib hissəsi olan musiqi barəsində plagiatçılıq törədilmişdir. Bununla da, ifaçı Gor Yepremyan və Əsərin qanunsuz ifasında, həmin ifanın lentə alınıb İnternetdə yerləşdiirlməsində iştirak etmiş şəxslər Bəhram Nəsibovun şəxsi müəlliflik hüquqlarını və onun varislərinin əmlak hüquqlarını pozmuşdur. Müəlliflik hüququnun qeyd edilən pozulması halı ilk növbədə pozuntunu törətmiş Gor Yepremyanın və digər şəxslərin hüquqi məsuliyyətini yaratmışdır.

9. Qeyd edilən pozuntu faktını araşdırmadıqda və aradan qaldırmadıqda, Ermənistan Respublikasının üzvü olduğu "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern konvensiyasının 5-ci maddəsində təsbit edilmiş təməl prinsiplərindən biri olan "milli rejim" prinsipini və tərəf olduğu digər beynəlxalq müqavilələrin, o cümlədən Ümumdünya Əqli Mülkiyyət Təşkilatını (ÜƏMT) təsis edən Konvensiyanın, ÜƏMT-nin Müəllifik Hüququna dair Müqaviləsinin və İfalar və Fonoqramlara dair Müqaviləsinin müddəalarını pozmuş olacağını bildiririk.

Bununla əlaqədar, Ermənistan Respublikasından Azərbaycan bəstəkarı Bəhram Nəsibovun "Qarabağ" əsərinin Gor Yepremyan tərəfindən sözləri dəyişdirilməklə "Sirun jan" adı altında erməni xalq mahnısı kimi kütləvi ifa və təqdim edilməsi və plagiatçılıq hallarının aradan qaldırılmasını, Bəhram Nəsibovun müəlliflik hüquqlarının bərpa edilməsini, beynəlxalq hüquqa və milli qanunvericiliyinə uyğun olaraq pozuntunu törətmiş şəxsləri məsuliyyətə cəlb etməyi və görülmüş tədbirlər barədə məlumat verməyi tələb edirik.

**Məzənnə**

**Fransada keçirilən son seçkilər avronun dəyərinə təsir edərək siyasi mənzərəni kəskin şəkildə dəyişdirib. Belə ki, seçkilərin nəticələri dərhal iqtisadi nəticələrə səbəb olub. Avro funt sterlinqə qarşı 0,1faiz ucuzlaşaraq 84,5 pensə, dollara nisbətdə isə 0,4 faiz ucuzlaşıb. Bu reaksiya Fransanın siyasi gələcəyi ilə bağlı qeyri-müəyyənliklərdən, xüsusən də mümkün koalisiya hökuməti perspektivindən irəli gəlir.**

# Avro ucuzlaşır, bəs manat?



İnvestorlar Fransada Le Penin "Milli Birlik"inin hakimiyyətə gəlməsi perspektivindən narahat idilər, lakin solçu "Yeni Xalq Cəbhəsi"nin qələbəsi onların ən böyük qorxusu idi. Çünki "Yeni Xalq Cəbhəsi" ölkənin yüksək borc yükü şəraitində büdcə xərclərini genişləndirməyi vəd edib. Bəs, görəsən, avronun ucuzlaşması Azərbaycan üçün nə vəd edir?

Qeyd edək ki, rəsmi statistikaya görə, Azərbaycan Dövlət Neft Fondu (ARDNF) öz valyuta ehtiyatlarının təxminən 20 faizini avro və funt sterlinqdə saxlayır. Bundan əlavə, Fond dünyanın mərkəzi banklarında Avropa valyutası ilə depozitlər qoyur.

■ **Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Akif Nəsirli deyib ki, avronun ucuzlaşmasının Azərbaycana ciddi təsiri yoxdur.** Onun sözlərinə görə, avronun ölkə iqtisadiyyatında payı olduqca kiçikdir: "Ola bilsin ki, qısamüddətli perspektivdə müəyyən qədər zərər ola bilər. Ancaq bu, müvəqqəti haldır.

Çünki Azərbaycanın ticarət dövriyyəsində və daxili maliyyə bazarında əsas rola malik olan dollardır. Dollar da hazırda sabitdir. O ki qaldı avronun Fransadakı seçkilərdən sonra zəifləməsinə, hesab edirəm ki, bu birbaşa seçkilərlə bağlı məsələ deyil. Avro demək olar ki, hər il yay aylarında zəifləyir. Zənnimcə, insanların yay aylarında hərəkətliliyi artdığından xərcləri də artır. Dövriyyə sürətləndiyindən valyutaların məzənnəsində fərqlər əmələ gəlir. Avroda bu ucuzlaşma kimi özünü göstərir". Onun sözlərinə görə, sentyabr ayından etibarən avro yenidən möhkəmlənməyə başlayacaq: "Hazırda avro zonada iqtisadi vəziyyət sabitdir. Hər hansı tənəzzül, geriləmə müşahidə edilmir. Bu baxımdan avronun zəifləməsi müvəqqəti xarakter daşıyır. Hesab edirəm ki, əvvəlki illərdə olduğu kimi bu ilin sentyabrından avro yenidən möhkəmlənməyə başlayacaq".

■ **Bank məsələləri üzrə ekspert ekspert Əkrəm Həsənov hesab edir ki, avronun hazırkı məzənnəsi əslində Azərbaycan üçün sərfəlidir, çünki Azərbaycan valyutası olan manat dollara bağlanması üzündən möhkəmlənir.** Bu o deməkdir ki, Avropa malları və xidmətləri ölkəmiz üçün ucuzlaşır. Azərbaycan üçün bu vəziyyət müsbət məqamdır: "Azərbaycan Dövlət Neft Fondunun aktivlərinin bir hissəsi avro ilə ifadə olunub, lakin onların əksəriyyəti dollardadır. Ona görə də avronun ucuzlaşması Azərbaycan üçün daha sərfəlidir".

"

*Dövriyyə sürətlənir, valyutaların məzənnəsində fərqlər əmələ gəlir*

*Avronun hazırkı məzənnəsi, əslində, Azərbaycan üçün sərfəlidir*

✍ **_Sevinc_**


# "Nar"ın "Al bir, aç min" kampaniyası ilə yayı doyunca yaşa!

R




**Sərfəli xidmətləri ilə müştərilərinə ən yaxın olan "Nar" yenilənmiş brend strategiyasının davamı olaraq, "Al bir, aç min" kampaniyasını təqdim edir. "Nar" ilin ən çox gözlənilən kampaniyası ilə hər bir müştərisinə unudulmaz yay mövsümü vəd edir.**

Yay ərzində fərqli sürprizləri özündə birləşdirən kampaniyanın ilk mərhələsi 10 iyul tarixində başlayacaq. "Nar" sosial media hesablarında təqdim etdiyi müsabiqədə müştərilərinə 1000 GB internet bonusu və 4 ədəd "iPhone 15" hədiyyə edəcək. Kampaniya boyunca digər hədiyyəli müsabiqələrdən də vaxtında xəbərdar olmaq üçün "Nar"ın rəsmi sosial media səhifələrini (Facebook, Instagram, X və LinkedIn) izləməyiniz tövsiyə olunur. Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Turizmdə Çin mövsümü

*Çinli turistlərin Azərbaycana axını gözlənilir. Belə ki, iyulun 3-də Azərbaycan Çin vətəndaşları üçün bir illik vizasız rejim tətbiq etdikdən sonra, Çin onlayn səyahət platformalarında Azərbaycanla əlaqəli turizm məhsullarına maraq kəskin şəkildə artıb. "Global Times" xəbər verir ki, iyulun 4-də Azərbaycanla əlaqəli turizm məhsullarının axtarış həcmi 50 faiz artıb. Bildirilib ki, Azərbaycan istiqamətinə olan sifarişlər ötən ilin iyulun əvvəli ilə müqayisədə 85 faiz artıb. Qafqaz ölkələrinə - Azərbaycan, Gürcüstan və Ermənistana olan sifarişlər isə 103 faiz artıb.*



Cəmiyyət



**Məhəmməd Muradov,**
DTA-nin Turizm siyasəti və strategiyası şöbəsinin müdiri

Məlumata görə, bu ilin iyulun 4-nə qədər Çindən Azərbaycana aviabilet sifarişlərinin həcmi 336 faiz artıb. Həmçinin bildirilir ki, bundan sonra Pekin və Çinin şimal-qərbində yerləşən Sincan-Uyğur Muxtar Rayonunun mərkəzi olan Urumçi şəhərindən Bakıya birbaşa uçuşlar həyata keçiriləcək. Qeyd edək ki, Çin vətəndaşlarına birtərəfli qaydada bir il müddətinə vizasız rejimin tətbiqi Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində iyulun 3-də qəbul olunan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"də qeyd olunub. Bu ilin yanvar-iyun aylarında Çindən Azərbaycana 16 min 609 turist səfər edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 135 faiz artım deməkdir.

■ **Bunu Dövlət Turizm Agentliyinin Turizm siyasəti və strategiyası şöbəsinin müdiri Məhəmməd Muradov Bakıda "Şanxay Əməkdaşlıq Təşkilatı Nümayiş Zonası - Azərbaycanda Logistika və Ticarətin Təşviqi" mövzusunda keçirilən konfransda bildirib.** O qeyd edib ki, Azərbaycan Uzaq Şərq ilə turizm sahəsində əməkdaşlığa önəm verir: "Çin vətəndaşlarına birtərəfli qaydada bir il müddətinə vizasız rejim tətbiq edilməsi də bu sahədə əməkdaşlığın inkişafına böyük dəstəkdir. İki ölkə arasında turizmin inkişafına töhfə verməyə hər zaman hazırıq. Bu istiqamətdə təşkil olunan sərgilərdə aktiv iştirakımızı bundan sonra da davam etdirəcəyik. Həmçinin hava əlaqəsinin də inkişafı üçün səylərimiz davamlı olacaq". Bəs, görəsən, Azərbaycanın turizm sektoru Çindən gələn turist axınını qarşılamağa hazırdırmı?

■ **Məsələni qəzetimizə şərh edən turizm üzrə ekspert Ceyhun Aşurov deyib ki, çinli turistlər dünyada ən çox səyahət edən və xərcləyən turistlər hesab edilir:** "Çinlilər ilboyu dünyanın müxtəlif ölkələrinə, xüsusən də qrup şəklində səyahət edirlər. Onlar səyahət xərcləmələrinə görə dünyada birinci yerdədirlər. Bu nöqteyi-nəzərdən bir çox turizm ölkələri Çin bazarından müəyyən pay almaq istəyirlər. Azərbaycanın da vizasız rejim tətbiq etməsi Çindən gələn turistlərin sayına müsbət təsir göstərəcək.



**Ceyhun Aşurov,**
turizm üzrə ekspert

Bu məsələdə birbaşa aviareyslər xüsusilə əhəmiyyət daşıyır. Birbaşa aviareyslərin olması və vizasız rejimin tətbiq edilməsi rahat şəkildə gəliş-gedişi artırmağa xidmət edir. Məsələn, diqqətlə baxsaq görərik ki, Hindistandan ölkəmizə gələn turistlərin sayının kəskin artması birbaşa aviareyslərlə əlaqədardır. Eləcə də Birləşmiş Ərəb Əmirliklərindən gələn turistlərin sayının artması birbaşa aviareyslər və ucuz hava daşımalarının dövriyyəyə girməsi ilə bağlıdır. Eyni qaydada da viza rejiminin aradan götürülməsi Çindən gələn turistlərin sayına ilboyu öz təsirini göstərəcək".

> *"Çin vətəndaşlarına birtərəfli qaydada bir il müddətinə vizasız rejim tətbiq edilməsi də bu sahədə əməkdaşlığın inkişafına böyük dəstəkdir*
>
> *Çinli turistlər dünyada ən çox səyahət edən və xərcləyən turistlər hesab edilir*

Azərbaycanın turizm sektorunun bu prosesə hazır olub-olmadığına gəlincə, ekspert deyib ki, Azərbaycan hər bir ölkə kimi gələn turistlərin sayının ilboyu təqvimə bölünməsinə çalışır: "Yəni, əsas məqsəd odur ki, turistlər yalnız mövsümün pik dövründə, yayda deyil, bütün ilboyu səyahət etsinlər. Azərbaycanın bəlli bir yerləşmə gücü var. Hazırda 800-ə yaxın otelimiz var, təxminən, 60 minə yaxın yataq gücümüz mövcuddur. Yay fəslində turistlərin gəlməsi, digər fəsillərdə daha az səyahətçilərin olması iqtisadi cəhətdən də səmərəli hesab edilmir. Biz ilboyu müxtəlif tədbirlər, festivallar şəklində tənzimləmələr etməklə turizm bazarında stabillik əldə edə bilərik. Yeni bazarların açılması, ölkəyə gələn turistlərin sayının artması və bunun təqvimə bölünməsi otellərin doluluq səviyyəsinə də müsbət təsir göstərəcək".

✍ **Sevinc**

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏYİNATI



Azərbaycan Prezidenti İlham Əliyev Suraxanı Rayon İcra Hakimiyyətinə yeni başçı təyin edib. Dövlət başçısının Sərəncamı ilə Adil Abış oğlu Əliyev Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. 55 yaşlı Adil Əliyev parlamentin III, IV, V və VI çağırış deputatı və sonuncu çağırış Milli Məclisin sədr müavini olub. O, eyni zamanda Azərbaycan Kikboksinq Federasiyasının prezidentidir.

### Həftənin QƏLƏBƏSİ



Azərbaycanın 16 yaşadək qızlardan ibarət basketbol milli komandamız Ermənistana qalib gəlib. Evren Alkayanın baş məşqçisi olduğu yığmamız rəqibini 86:59 hesablı məğlubiyyətə uğradıb.

Qeyd edək ki, milli növbəti oyununu iyulun 11-də Kipr kollektivinə qarşı keçirəcək.

### Həftənin AÇIQLAMASI



Əməkdar artist Rafael İsgəndərov plastik əməliyyatlarla bağlı dediyi sözlərlə diqqət çəkib. Aktyor bu barədə "Şən gənc" verilişində danışıb.

Belə ki, proqram zamanı ona ünvanlanan "Sənət üçün plastik əməliyyat etdirərdinizmi?" sualına "Plastik əməliyyat günahdır", - deyərək cavab verib. "İnsan uşaq vaxtı yıxılıb, burnu qırılıb, çəpər əyriliyi var, bu səbəbdən olarsa, başqa məsələ. Amma Allahın verdiyini dəyişdirəsən... Bu, düzgün deyil", - Rafael İsgəndərov bildirib.

### Həftənin ÜZRÜ



Slovakiyanın Baş naziri Robert Fitso vəzifəsinə qayıdıb. Hökumət başçısı bu barədə "X"də paylaşım edib. "Əziz mütərəqqi liberal media və müxalifət, sağ qaldığım üçün üzr istəyirəm, amma mən qayıtdım", - Fitso qeyd edib. Xatırladaq ki, nazirə mayın 15-də silahlı hücum olunub. Bunun ardınca Fitso aylarla müalicəsini davam etdirib, iki dəfə əməliyyat olunub.

### Həftənin ƏN YAXŞISI



Avro-2024-ün yarımfinalında keçirilən İspaniya - Fransa matçının (2:1) ən yaxşı futbolçusu bəlli olub. Bu barədə UEFA-nın mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, İspaniya millisinin 16 yaşlı hücumçusu Lamin Yamal oyunun ən yaxşısı adına layiq görülüb. O, 90+4-cü dəqiqədə əvəzlənərək 21-ci dəqiqədə komandasının bərabərlik qolunu vurub.

### Həftənin HESABI



Dünyanın ən varlı iş adamı, "Amazon"un sahibi Ceff Bezos nişanlısı ilə tətilə çıxıb. Cütlük əvvəlcə Yunanıstanda istirahət edib, daha sonra 500 milyon dollar dəyərində "Koru" adlı lüks yaxtaları ilə Göcek və Bodrumda lövbər salıb. Bezos və nişanlısı ötən axşam Aralıq dənizi və Fransız mətbəxi yeməkləri təqdim edən lüks restoranda yaxın dostları ilə şam yeməyi yeyib. İş adamı gecənin sonunda restorana təxminən 100 min avro hesab (təxminən 184 110 manat) ödəyib.

✍ *Azad Əliyev*

# "Bakcell" Wi-Fi üzərindən zəng xidmətini Azərbaycana gətirdi

**"Bakcell" şirkəti Azərbaycanda ilk dəfə olaraq Wi-Fi üzərindən zəng xidmətini - VoWiFi (Voice over Wi-Fi) texnologiyasını istifadəyə verib. Yeni xidmət ölkə xaricində olan abunəçilərə smartfonda Wi-Fi şəbəkəsi aktiv olduğu halda dünyanın istənilən yerinə Azərbaycandakı tarif ilə zəng etmək imkanı verəcək.**

Bunun üçün ölkə xaricində olarkən rouminq və VoLTE / VoWiFi xidmətlərinin aktiv olması kifayətdir.

VoWiFi xidmətinin üstünlükləri nələrdir?

- VoWiFi xidməti ilə abunəçi xaricdə olarkən daxil olan rouminq zənglərini tamamilə pulsuz qəbul edə biləcək.

- Şəbəkənin olmadığı yerlərdə belə, WiFi üzərindən mobil nömrə ilə yüksək keyfiyyətli zəng etmək mümkün olacaq.

- Xaricdə olarkən VoWiFi xidməti ilə edilən zənglərə Azərbaycandakı tarif tətbiq edilir. Bu isə beynəlxalq zənglərdə əlavə xərclərə qənaət etməyə kömək edəcək. Smartfonun VoWiFi texnologiyasını dəstəkləməsini *309# kodunu yığmaqla yoxlamaq olar. Ətraflı məlumat bakcell.com/vowifi <https://bakcell.com/vowifi> səhifəsində yerləşdirilib.

Qeyd edək ki, VoWiFi texnologiyası "Bakcell"in yeni brend strategiyasına daxil olan innovativ məhsullardan biridir. Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərin ixtiyarına verməyi planlaşdırır.






## GÜNÜN FOTOSU



İspaniyada ənənəvi öküz festivalı

## Dəyərindən dəfələrlə baha satılan brend məhsullar

**Əli Əlirzayev,**
iqtisadçı-ekspert

Bəzi qiymәti tənzimlənən məhsullar istisna olmaqla, sahibkarların qiymət siyasətinə müdaxilə edilmir. Səh. 4

## STATİSTİKA



■ **Bu ilin I yarısında İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu 2 744 layihənin maliyyələşdirilməsinə 102,7 milyon manat güzəştli kredit verib.**

Bu barədə Fonddan bildirilib. Məlumata görə, verilmiş kreditlər hesabına 1 556 yeni iş yerinin yaradılması nəzərdə tutulur.



Səh. 7

# Avro ucuzlaşır, bəs manat?